# HƏFTƏ İÇİ

www.hafta.az

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

№ 19 (3435) Cümə axşamı / 19-25 may 2022-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## "Rus səfir Azərbaycanın iki yerə bölünəcəyi ilə hədələyirdi..."



**Etibar Məmmədov,**
AMİP lideri, istiqlalçı deputat

***AMİP lideri, istiqlalçı deputat Etibar Məmmədovla hafta.az üçün budəfəki söhbətimizdə 28 il öncə I Qarabağ savaşında Azərbaycanın Ermənistanla əldə etdiyi atəşkəs razılaşması, onun 3 onillik ərzində törətdiyi fəsadlar, nəhayət, 2020-ci ilin payızındakı müzəffər II Qarabağ savaşından sonra yaranmış yeni hərbi-siyasi durumda Azərbaycan qarşısındakı əsas vəzifələr, həmçinin Ukraynadakı savaşla bağlı həmin ölkədə və Rusiyada gözlənilən proseslərdən və s. bəhs etdik.***

*Hazırda əsas məsələ işğaldan azad edilmiş torpaqların sürətlə məskunlaşdırılması, yeni əhalinin o ərazilərdə daimi yaşayış üçün yerləşdirilməsidir*

Səh. 3

# Dövlət qurumları yanında ictimai şuralar

***Bir müddət əvvəl ən mox müzakirə edilən məsələlərdən biri dövlət qurumları yanında yaradılan ictimai şuralar mövzusu idi. Şura üzvlərinin seçimi, namizədlərin kimliyi çoxsaylı fikir müxtəlifliyinə yol açdı. Proses arxada qalıb. İndi bir çoxlarını bu sual düşündürür: dövlət qurumlarının tərkibində yaradılan ictimai şuralar həmin qurumların fəaliyyətində nəyi dəyişdi, ictimai şuraların effekti varmı? Hafta.az bu məsələni araşdırıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərkibində yaradılan ictimai şuranın üzvü Məhluqə Rəhimova hesab edir ki, onun təmsil olunduğu qurumda ictimai şuraların fəaliyyəti effektivdir. M.Rəhimovanın sözlərinə görə, sosial-məişət, məşğulluq və digər sosial-ictimai problemllərin həllli ilə bağlı böyük yükü və məsuliyyəti olan nazirlikdə ictimai şuraların fəaliyyəti özünü çox sahələrdə göstərə bilir. Onun fikrincə, ictimai şuraların hansı dövlət qurumlarında olması və ora necə müdaxilə etməsindən də çox şey asılıdır:***



"

*İki il ərzində ictimai şura toparlanana qədər vaxt qurtarır*

*Bəzilərində fəaliyyət görüntüsü yaradılır, bəzilərində isə o görüntü də yoxdur*

"Azəriqaz", Azərsu" və digər dövlət qurumları var ki, orada formalaşan ictimai şuralar görünən problemləri dövlət strukturlarına düzgün yönləndirə bilirlər. Bununla da məmur özbaşınalığının qarşısı alınır. Bütövlükdə bütün ictimai şuraların fəaliyyəti effektli deyil. Bir çox hallarda dostla, tanışla, xahişlə yaranan QHT-lər var ki, fəaliyyətləri, kadr bazaları zəifdir. O, ictimai şuraya seçilsə də heç nə edə bilmir. Uzun illərin təcrübəsi olan və güclü kadr potensialı olan QHT-lər də var ki, onların söz deməyə cəsarəti, bacarığı var. O halda məmurlar ictimai şura üzvləri ilə əməkdaşlıq etməyə məcbur qalırlar. İctimai şuralar yerlərdə görünən problemlərin qarşısını alırlar". İki ildir ki, ƏƏSMN-də ictimai şura üzvü olduğunu deyən M.Rəhimova sosial sahədə yaranan problemlərin araşdırılması, həlli yönündə bir çox regionlarda problemləri açığa çıxardıqlarını və aidiyyatı orqanlar qarşısında məsələ qaldırdıqlarını deyib.

"Bu qurum bizim fəaliyyətimizin reallığını görür və ona görə də bizimlə əməkdaşlıq onlara çətinlik yaratmır. Əslində biz bütün qurumlarla işləyirik. İctimai şurada heç bir problem qapalı qalmır. Sosial problemlərin qapalı qalması nazirlik üçün pisdir. Biz problemləri Sahil Babayevin müzakirəsinə də çıxardırıq. Təbii ki, regionda olan məmurlar bunu bilir və işlərində məsuliyyətli olmağa çalışırlar. Biz 20 il Şəki şəhərində ev növbəsində olan, lakin yerli icra hakimiyyəti tərəfindən get-gələ salınan Qarabağ qazisinin məsləsini araşdırıb nazirliyin qarşısında qaldırdıq. Nəhayət, ötən il onun evinin tikintisinə başlandı. Biz Şəki kəndlərində apardığımız monitorinq zamanı 100-lə problemi aşkar edib həllinə nail olduq. Çox təəssüf ki, bir çox hallarda icra hakimiyyətləri problemə məsuliyyətsiz yanaşırlar. Yəni ictimai şuralar məmurların fəaliyyətinə təsir edə bilir. Elə ictimai şuralar var ki, səsini də çıxarmır, formal olaraq görünür".

■ **"Təmiz Dünya" İctimai Birliyinin sədri, DİN yanında İctimai Şura üzvü Mehriban Zeynalova hafta.az-a bildirb ki, dövlət yanında yaradılan ictimai şuralar 2 il müddətində fəaliyyət göstərə bilir.** Fəaliyyət könüllüdür və hansısa tədbirlərin həyata keçirilməsi o iki il ərzində nəzərdə tutulur. Hansısa məsələlər olanda ictimai şura həmin qurumların rəhbərlərinə məlumatlar göndərir və onunla bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulur.

"Məsələn, Daxili İşllər Nazirliyində ictimai rəyin öyrənilməsi ilə bağlı bir qurum var, o qurum ictimai rəyi öyrənir və onunla bağlı məlumatı verir. Şikayətlər bölməsi var, o şikayətlərlə bağlı müraciətlərə baxılır, göndərilir. Yəni işlər gedir. Amma iki il ərzində ictimai şura toparlanana qədər vaxt qurtarır. Ona görə də 2 il ərzində köklü dəyişiklik yaratmaq çətindir".

M.Zeynalova qeyd edir ki, Daxili İşlər Nazirliyində elə məsələlər var ki, orda istintaq məqamları və onların müddəti, baxılması zaman tələb edir. İctimai şuraya seçilən üzvlərin əksəriyyəti müstəqil qeyri hökumət təşkilatlarıdır və bir çox hallarda ictimai şuraları istintaq qrupu kimi görmək yanlışıdır. "Biz ictimai sorğuları araşdırırq məlumatı veririk. Hansınınsa nəticəsi dərhal olur, elələri də var ki, müddət tələb edir. Amma elə məsələlər olub ki, onların həllinə nail olmuşuq. Əslində ictimai şura ictimai dinləmələri aparmalı, məsələləri müzakirə eləməli, təkliflər verməlidir ki, dəyişiklik olsun. İctimai şuralarla bağlı qanunun təkmilləşməsinə ehtiyac var. Hələ ictimai şuraların özünün struktur olaraq formalaşmasınada problem var. Müddət az olduğuna görə nəyəsə nail olmaq çətin olur".

■ **"Azərsu" ASC yanında İctimai Şuranın üzvü Cavid Şahverdiyev hafta.az-a bildirib ki, "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edildikdən sonra dövlət qurumları yanında ictimai Şuralar yaranmağa başladı.** Bəzi mərkəzi icra hakimiyyət orqanları yanında belə qurumlar yaradılmışdı. Onun sözlərinə görə, əksər ictimai şuralar yenidir. Yeni olduğundan tam formalaşmağa, otruşmaya bilər. "Baxmayaraq ki, qanun 2014-cü ildən qüvvədədir. Bu gün dövlət qurumları yanında yaradılan ictimai şuraların 90 faizi müstəqil deyil, təzyiqlər var. Kənardan yox, daxildən. Müstəqil qərar çıxara bilmirlər, məlum qanunauyğun fəaliyyət göstərə bilmirlər. Bir çox qurumlarda ictimai iştirakçılığın genişlənməsini istəmirlər, fəaliyyətlərindəki şəffaflığın təmini onlara sərf etmir. İctimai Şuraların əksəriyyəti formal yaradılıb, qanunun tələblərinə deyil, bu çətir altında şəxsi maraqlarını təmin edirlər. Ona görə də bu qurumlara inam, etimad olmur. İctimai Şuraların əksəriyyəti hansı qurumun yanında yaradılıbsa, onun bir şöbəsi kimi fəaliyyət göstərir. Yuxarıdan gələn tapşırıqları icra edir".

DİN yanında ictimai Şura üzvü, "Cümhuriyyət" qəzetinin baş redaktoru Rəfail Becanov hafta.az-a bildirib ki, ictimai şuraların fəaliyyəti ilə bağlı çox müzakirələr gedir və müxtəlif fikirlər var.

Səh. 2

"

*Qaydalara əsasən ictimai şuralara daha geniş imkanlar yaradıla bilər*

*Etiraf edək ki, vətəndaş cəmiyyəti institutlarımız hazırda bu səviyyədə əngəli aşmaq gücündə deyillər*

MƏZƏNNƏ



**Xalid Kərimli,**
iqtisadçı-ekspert

"

■ Dolların bahalaşmaqda davam etməsi manat üçün ciddi təzyiqlər formalaşdıracaq

■ İnflyasiyanın artma səbəblərinin kökündə ciddi sürətdə dünya bazarındakı qiymətlərin artması durur

■ Rublun əvvəlcə dəyər itirməsi və sonradan bahalaşması təbii ki, Rusiya Mərkəzi Bankının və hökumətinin atdığı addımlarla bağlıdır

Səh. 5

GÜNÜN FOTOSU...



**Prezidentlər klassik avtomobillərə baxdılar**

GÜNÜN SİTATI

"
*Türkiyə Qarabağda ümid və vicdanın təmsilçisi kimi hərəkət edib*
"



**Rəcəb Tayyib Ərdoğan,**
Türkiyə Prezidenti

KARİKATURA



**Sosial şəbəkə "paxmeli"**

"

## Tikinti şirkətləri gözləmə mövqeyində

**Elnur Fərzəliyev,**
əmlak məsələləri üzrə ekspert

Rusiyada yaşayan soydaşlarımız artıq buradakı əmlaklarını satışa çıxarırlar ki, orada olan bizneslərini xilas edə bilsinlər.

Səh. 5

STATİSTİKA



■ **İlin əvvəlindən doğulan üçəmlərin sayı açıqlanıb. Cari ilin yanvar-mart aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkə üzrə 29 179 doğulan körpə qeydə alınmış və əhalinin hər 1 000 nəfərinə bu göstərici 11,8 təşkil edib.**

Doğulanlar arasında cins nisbəti oğlanlarda 53,1 faiz, qızlarda isə 46,9 faiz olub. Körpələrdən 902-si əkiz, 42-si isə üçəm doğulanlardır.



Səh. 6

## Çap mediasına növbəti dəstək

XƏBƏR LENTİ

# Baş nazir Litva Prezidenti ilə görüşüb



**Baş nazir Əli Əsədov mayın 18-də Litva Respublikasının Prezidenti Qitanas Nauseda ilə görüşüb.**

Nazirlər Kabinetindən hafta.az-a verilən xəbərə görə, görüşdə Azərbaycan-Litva münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafından məmnunluq ifadə edilib.

İki ölkənin prezidentlərinin iştirakı ilə Bakıda keçirilən Azərbaycan-Litva biznes forumunun əhəmiyyəti vurğulanıb. Görüşdə Azərbaycan ilə Litva arasında siyasi, ticari-iqtisadi, sərmayə qoyuluşu, humanitar, turizm və bir çox digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

# İran Şuşadakı mədəni tədbirləri dəstəkləyir

**Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev İran İslam Respublikasının mədəniyyət və islam irşadı nazirinin müşaviri Əbuzər İbrahim Torkmanla görüşüb.**

Nazirlikdən hafta.az-a verilən xəbərə görə, Elnur Əliyev tarixən ölkələrimiz arasında mövcud olan və güclənən mədəni əlaqələrdən bəhs edərək ədəbiyyat sahəsində olan mənəvi bağlardan danışıb. Tərəflər dostluq, əməkdaşlıq münasibətinin bundan sonra da inkişaf etdiriləcəyinə inamlarını bildirərək, bu sahədə görülən işlər barədə fikir mübadiləsi aparıblar.

Əbuzər İbrahim Torkman da öz növbəsində mədəniyyət nazirliyinin rəhbərliyini İram İslam Respublikasına rəsmi səfərə dəvət etdikdən sonra Qarabağ, xüsusən Şuşada keçirilən mədəni, ədəbi tədbirləri dəstəklədiklərini vurğulayıb.

Muzeylərin, kitabxanaların eləcə də digər mədəniyyət ocaqlarında aparılan bərpa və yenidənqurma işlərində yaxından iştirak etməyə hazır olduqlarını bildirib. Görüş tərəfləri maraqlandıran bir sıra mühüm məsələlərin müzakirəsi ilə davam edib.

# Səhiyyə naziri Türkiyədə müalicə alan qazilərimizi ziyarət edib

**Səhiyyə Nazirliyinin nümayəndə heyətinin 17 maydan başlayan iki günlük Türkiyə səfəri davam edir.**



Nazirlikdən hafta.az-a verilən məlumata görə, bu gün səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti Vətən müharibəsi zamanı yaralanan və hazırda qardaş ölkədə müalicəsi davam edən qazilərimizi ziyarət ediblər.

Teymur Musayev Prezident İlham Əliyevin vətəndaşların sağlamlığının qorunmasına hər zaman xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb: "Şəhid ailələri və qazilərə diqqət və qayğı dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir".

44 gün ərzində tariximizin ən şərəfli səhifələrindən birini yazıldığını qeyd edən nazir böyük Qələbənin şəhidlərimizin qanı bahasına, əsgər və qazilərimizin döyüşlərdə böyük fədakarlığı hesabına qazanıldığını vurğuladı: "Vətən müharibəsində sizlər əsil qəhrəmanlıq göstərərək, düşmənə layiqli və unudulmaz dərs verdiniz. Müharibə başlayandan bu günə qədər qardaş Türkiyə Azərbaycanın yanındadır. Qazilərimizin yenidən sağlamlıqlarına qovuşmaları üçün türkiyəli mütəxəssislərin dəstəyi bizim üçün çox önəmlidir. İnanıram ki, tezliklə sağalıb vətənə qayıdacaqsınız".

Görüş zamanı səhiyyə naziri qazilərə vətənə qayıtdıqdan sonra müalicələrini Sanator-Kurort Reabilitasiya Mərkəzində davam etdirə biləcəklərini qeyd edib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# "Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır"

**Litva Respublikasının Prezidenti Gitanas Nauseda Azərbaycana rəsmi səfər edib. Azərbaycan Prezidenti İlham Əliyevlə təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibli görüşdən sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, Litva ilə Azərbaycan uzun illərdir ki, strateji tərəfdaşdırlar: "Aramızda imzalanmış Strateji Tərəfdaşlıq üzrə Bəyannamə həqiqətən əməkdaşlığımızın mahiyyətini əks etdirir. Bu gün cənab Prezidentin səfəri bir daha əməkdaşlığımızın strateji mahiyyətini təsdiq edir.**





## Gündəm

Biz bir çox məsələləri müzakirə etdik. Əlbəttə ki, biz məmnuniyyətlə ölkələrimiz arasındakı güclü siyasi əlaqələri, ikitərəfli gündəliyə aid müxtəlif məsələlərin həllinə kömək edən siyasi dialoqu vurğuladıq. İki il öncə cənab Prezident ilə videokonfrans vasitəsilə danışmaq imkanımız olub, çox konstruktiv və məhsuldar müzakirələr aparılıb. İndi də canlı olaraq ikitərəfli gündəliyə dair çoxlu vacib məsələlər haqqında danışmaq imkanımız oldu".

**Dövlət başçısı bir daha Cənubi Qafqazda münaqişədən sonrakı vəziyyətə dair fikirlərini açıqlayıb:**

"Biz Cənubi Qafqazı sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət bölgəsi kimi görmək istəyirik. Düşünürəm ki, İkinci Qarabağ müharibəsindən sonra bu əməkdaşlıq formatını yaratmaq üçün imkan var. Biz, həmçinin gürcüstanlı həmkarlarımız ilə bu barədə fikir mübadiləsi apardıq və onlar da bu seçimi çox müsbət qiymətləndirdilər. Lakin təəssüf ki, Ermənistan indiyə qədər Cənubi Qafqazda üçtərəfli qarşılıqlı fəaliyyət formatının ilkin olaraq başlanmasına həvəs göstərmir. Düşünürəm ki, imkanlar əldən verilməli deyil. Çünki indi Cənubi Qafqaz üçün sülhə, təhlükəsizliyə və sabitliyə sadiqlik nümayiş etdirməyin vaxtıdır. Postmünaqişə vəziyyətinə gəldikdə, bizdə müəyyən nikbinlik var. O fakta əsaslanaraq ki, Ermənistan rəsmi olaraq sülh müqaviləsi ilə bağlı Azərbaycan tərəfindən irəli sürülən beş əsas prinsipi qəbul etmişdir. Yeri gəlmişkən, İkinci Qarabağ müharibəsi qurtaran kimi Azərbaycan açıq şəkildə sülh müqaviləsinin bağlanmasını və sərhədlərin delimitasiyasına dair birgə komissiyanın yaradılmasını dəstəkləməyə başlamışdır. Bu, Ermənistan tərəfindən müsbət qarşılanmamışdır. Sonra biz mövqeyimizi, bu yaxşı məlum olan beş prinsipi dəqiqləşdirdik, hansı ki, bunlar beynəlxalq hüququn əsas prinsipləridir, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və yaxşı beynəlxalq təcrübə və davranışlara uyğundur. Ümid edirik ki, Ermənistan həmin prinsipləri qəbul etdiyini ehtiva edən ilkin mövqeyinə sadiq qalacaq və bu, sülh sazişi üçün əsas olacaq.

Eyni zamanda, biz Ermənistanı sərhədlərin delimitasiyasına başlamağa dəvət etdik. Çünki təxminən 30 il ərzində Ermənistanla dövlət sərhədimiz, o cümlədən Azərbaycanın 20 faiz ərazisini təşkil edən digər rayonları işğal altında olub. Buna görə sərhədlərin delimitasiyası zərurəti aydındır. Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin təşəbbüsü ilə aprelin 6-da Brüsseldə keçirilmiş görüş zamanı razılaşdırılmışdır ki, aprelin sonuna qədər hər iki tərəf işçi qrup yaradacaq və onlar artıq öz fəaliyyətinə başlayacaqlar.

Azərbaycan işçi qrupunu vaxtında yaratmışdır və nümayəndə heyətini ezam etməyə hazır idi. Bu, erməni tərəfi ilə razılaşdırılmışdır. Yeri gəlmişkən, sərhədlə bağlı ilk görüşün keçirilməsini təklif edən Ermənistanın Xarici İşlər Nazirliyi olmuşdur. Azərbaycan həmin təklifi qəbul etmişdir və biz nümayəndə heyətini göndərməyə hazır idik. Lakin, sonuncu gün - aprelin 29-da Ermənistan artıq razılaşdırılmış görüşü ləğv etdi. Bu, çox məyusedici məsələdir. Daha məyusedici isə, yenə də Ermənistanın ilkin təklifindən irəli gələrək, 7-11 may tarixlərində sərhəddə yeni görüşün keçirilməsi təklifimizdən də Ermənistanın imtina etməsi oldu. Beləliklə, indiyədək, biz Ermənistandan hər hansı yeni tarixləri gözləyirik ki, işə başlayaq. Çünki bu cür məsuliyyətsiz mövqe, əlbəttə ki, narahatlıq doğurur.

Azərbaycan hər zaman öhdəliklərə sadiq olub. Aprelin sonuna qədər görüşə hazır olduğumuzla bağlı Avropa İttifaqı Şurasının prezidentinin iştirakı ilə söz vermişdiksə, biz buna sadiq idik. Lakin, biz eyni məsuliyyəti Ermənistan tərəfindən də görməliyik. Başqa sözlə, bizdə müəyyən nikbinlik olsa belə, Ermənistan hökumətinin bu cür manevrləri və çox qəribə addımları, əslində, yaranan müəyyən etimadı pozur.

> Biz Cənubi Qafqazı sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət bölgəsi kimi görmək istəyirik

İkinci Qarabağ müharibəsinə gəldikdə, bildirmək istərdim ki, Azərbaycan BMT Nizamnaməsinin bizə verdiyi hüquqdan, özünü müdafiə hüququndan tam yararlandı. Biz təxminən 30 il danışıqlara sadiq qaldıq, lakin onlar sıfır nəticə verdi. Uzun müddət ərzində mən şəxsən hər zaman Ermənistana qarşı beynəlxalq ictimaiyyət tərəfindən sanksiyaların tətbiq edilməsinə çağırırdım. Əgər sanksiyalar, özü də, ciddi sanksiyalar tətbiq edilsəydi, onda, ola bilsin, heç müharibə olmazdı. Lakin əfsuslar olsun ki, Ermənistan çox xüsusi münasibətdən yararlandı və beynəlxalq hüququ kobud şəkildə pozduğuna, digər ölkənin ərazisini işğal etdiyinə baxmayaraq, Ermənistana heç bir sanksiya tətbiq edilmədi.

Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla özü bərpa etməli oldu. BMT-nin Təhlükəsizlik Şurasının Ermənistanın qoşunlarının dərhal çıxarılmasını tələb edən qətnamələrini özü icra etməli oldu. Nəhayət, döyüş meydanında və danışıqlar masasında Azərbaycanın ərazi bütövlüyü bərpa olunmuşdur.

> Mən tam inanıram ki, bizim iqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün böyük potensial var

İndi isə biz ərazilərin yenidən qurulması və canlandırılması məsələsi ilə üz-üzəyik. Çünki hər şey dağıdılmışdır və yerlə-yeksan edilmişdir. Beynəlxalq ekspertlər azad edilmiş şəhərlərdən biri olan Ağdamı "Qafqazın Hirosiması" adlandırırlar. Lakin Hirosimada olduğu kimi, burada dağıntılar atom bombasına görə olmamışdır, işğal zamanı barbar və vandallar tərəfindən həyata keçirilmişdir. İndi isə yenidən demək istəyirəm ki, biz sülhə sadiqik və ona mümkün ən tez bir zamanda nail olmaq istəyirik".

Dövlət başçısı Avropa İttifaqı-Azərbaycan əməkdaşlığına da toxunub. Onun sözlərinə görə, Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır: "Avropaya təbii qazın ixracına başlamağımızı və neft-qaz qiymətlərinin artmaqda olduğu faktını nəzərə alaraq, bu il bizim Avropa İttifaqı ilə ticarət dövriyyəsinin həcmi, əlbəttə ki, artmaqdadır. Biz Litvaya Azərbaycan-Avropa İttifaqı yaxınlaşmasını dəstəklədiyinə görə minnətdarıq. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan artıq strateji tərəfdaşlıq haqqında bəyanatlar imzalayıb. Bu, üzv dövlətlərin üçdə biridir. Bu, onu göstərir ki, Avropa İttifaqı da bizim kimi əməkdaşlıqda maraqlıdır".

**Daha sonra çıxış edən Litva Prezidenti Gitanas Nauseda bildirib ki, Azərbaycan Qafqaz regionunda Litvanın çox önəmli tərəfdaşıdır. İkitərəfli münasibətlərin 2007-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq üzrə Birgə Bəyanatın ruhuna uyğun şəkildə daha da inkişaf etdirilməsi bizim marağımızdadır:**

"Mən tam inanıram ki, bizim iqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün böyük potensial var. Bu səbəbdən mən özümlə Azərbaycana bir çox biznes nümayəndələrini gətirmişəm. Biz bazar imkanlarını araşdırmaqda və ikitərəfli ticarət həcmlərini artırmaqda maraqlıyıq. Mən, həmçinin Azərbaycan biznes missiyasını bu ilin sonlarında Litvaya səfərə dəvət edirəm.

Biz Avropa və onun təhlükəsizlik arxitekturası üçün önəmli dönəmdəyik. Biz indi danışdığımız zaman Ukrayna öz suverenliyini və ərazi bütövlüyünü müdafiə edir. O, həmçinin qaydalara əsaslanan beynəlxalq nizamı müdafiə edir. İndi bütün mövcud praktiki vasitələrlə Ukraynanı dəstəkləmək vacibdir.

Litva Avropa İttifaqı ilə Azərbaycan arasında daha fəal əməkdaşlığın tərəfdarıdır. Azərbaycan Avropa İttifaqının Şərq Tərəfdaşlığı platforması kontekstində çox önəmli ölkədir və strateji enerji tərəfdaşıdır. Biz Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə irəliləyişi dəstəkləməkdə davam edirik. Ukraynadakı müharibə öz enerji resursları mənbələrini şaxələndirmək üçün Avropaya bir xəbərdarlıq idi. Avropa İttifaqı öz enerji resursları mənbələrinin şaxələndirilməsini və özünün yanacaq məhsullarında Rusiyadan asılılığına son qoymaq istəyir. Avropa İttifaqında enerji ixrac edən alternativ ölkələrlə, o cümlədən təbii qaz sahəsində Azərbaycanla əməkdaşlığın gücləndirilməsinə böyük maraq var. Azərbaycan enerji sektorunda Avropa İttifaqının etibarlı tərəfdaşıdır".

# Dövlət qurumları yanında ictimai şuralar

◂ əvvəli 1-ci səhifədə

Onun sözlərinə görə, cəmiyyətdə bəzən onların fəaliyyəti həm şişirdilir, həm də böyük gözləntilər olur. İctimai şuralar tam olaraq cəmiyyətin düşündüyü deyil və ola da bilmir. "İctimai şuralar bu gün adı qanunvericiliklə təsbit olunan, hüququ və vəzifələri olan, lakin heç bir təsiri olmayan, yalnız kağız üzərində bir ictimai nəzarət subyekti vəziyyətindədir. Ona görə ki, qurumlar özləri onları birmənalı qəbul etmir. Bəziləri bu şuralara özünün yan qurumu kimi baxır, bəziləri isə qanunun icrası baxımından razılaşıb, amma lazımsız bir subyekt hesab edir. Bu qurumlardan bir çoxu ictimai şuraların yaradılmasına məcburiyyətdən imkan tanıyıblar. Daha doğrusu, qanunun icrasına məcbur ediliblər. Qanunu icra etmək tələbi olub və etmirik deyə bilməyiblər. Münasibət dəyişməlidir. İçtimai Şuraların fəaliyyətinə diqqət ayırmaq lazımdır. Onların təklif, tövsiyə, rəyləri nəzərə alınmalıdır. Dövlət qurumları bilməlidir ki, bu şuralar özbaşına yaradılmayıb, qanunvericiliyin tələbidir. İctimai nəzarət mexanizmidir.

Hesab etmirəm ki, dünənlə müqayisədə bu gün köklü, fövqəladə nəsə dəyişib. Vəziyyət elə əvvəlki kimidir. Bəzilərində fəaliyyət görüntüsü yaradılır, bəzilərində isə o görüntü də yoxdur. İşləmək istəyən, işləməyə çalışan İctimai Şuralar da var. Məsələn, Təhsil Nazirliyinin yanında olan İŞ-in fəaliyyətini izləyirəm, müsbət dinamika var. O cümlədən, "Azəriqaz" İB-nin İctimai Şurasında bu hiss olunur, eləcə də adlarını çəkmədiyimiz bəziləri. Təmsil olunduğum DİN yanında İctimai Şura danəsə etməyə çalışır. Amma alınır, alınmır, o başqa məsələdir. Hesab edirəm, ictimai şuralar dinamik bir qurum olmalı, təmsil olunduğu mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə münasibətləri "İctimai iştirakçılıq haqqında" Qanunla tənzimlənməli və həmin qanunla təsbit olunan hüquqlarından istifadə etməlidir. İctimai şuralar hələ yenidir. İndi təşkil olunan bu şuralar bir növ keçid dövrünün subyektidir. Ümid edək ki, gələcəkdə daha fərqli olacaq...".

**■ Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, DİN, Dövlət Gömrük Komitəsi yanında İctimai Şuraların üzvü olan jurnalist Elməddin Muradlı hafta.az-a bildirib ki, ictimai şuraların fəaliyyətini ümumən normal hesab etmək olar. O, eyni zamanda digər dövlət qurumlarından fərqli olaraq Gömrük Komitəsində İctimai şuranın tam formalaşmadığını qeyd edib.**



"Demək olar ki, 1 ilə yaxındır fəaliyyətsiz qalmışıq. Əks tərəfdə 7 nəfər, digər tərəfdə isə 6 nəfər var. Və o 7 nəfər öz aralarında sədr seçir, kimlərisə müavin elan edirlər. Qanunda ictimai şurada 1 müavin nəzərdə tutulduğu halda bunlar 3 müavin elan ediblər". E.Muradlı qeyd edir ki, həmin qurumla sıx münasibət saxlayıb, vətəndaşlar tərəfindən daxil olan müraciətləri rəhbərliyə yönəldə, cavab ala bilir: "Xüsusən də ekoloji təmiz nəqliyyat vasitələrinin ölkə gətirilməsində güzəştlərin tətbiq olunmasında müzakirələr aparırıq". Onun sözlərinə görə üzv olduğu digər qurumlarda isə ictimai şuralar səmərəli fəaliyyət göstərirlər.

«Biz quruma namizədliyimizi verəndə bilirdik ki, bu könüllülük əsasında olan fəaliyyətdir və ictimai şuralar cənab Prezidentin tapşırığı ilə yaradılır. Düzdür, ictimai şuraların fəaliyyəti qanunvericilikdə daha geniş məqamları əks etdirir. Reallıq ondan ibarətdir ki, biz tam olaraq bu prosesləri həyata keçirə bilmirik. Ola bilsin, ilk mərhələdə olduğuna görə istənilən təcrübə hələ formalaşmayıb. Biz imkanımız yetən qədər işlər görürük".

E.Muradlı qeyd edir ki, DİN yanında ictimai şura üzvü olaraq yol hərəkəti təhlükəsizliyi ilə bağlı müraciət edən vətəndaşları hər gün dinləyir, hətta şuranın müzakirələrinə çıxarılmadan belə birbaşa aidiyyatı üzrə yönləndirmək imkanına malikdir.

"Demək olar ki, hər gün 1-2 belə müraciətlərin yönləndirilməsinə və həllinə nail oluram. Qarşı tərəf bu məqamlara diqqət yetirir və bizim tərəfimizdən edilən müraciətlər vaxtında qəbul olunur. Biz bir neçə dəfə DİN-in müavini general-leytinant İsmət Əliyevlə görüşmüşük, eləcə də nazirliyin digər əməkdaşları ilə ünsiyyətdəyik. Hətta bu yaxınlarda daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov ictimai şuranın sədri Əliməmməd Nuriyevi qəbul edib və söz verib ki, şura üzvləri ilə görüşəcək".

E.Muradlı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yanında ictimai şuranın fəaliyyətini daha geniş hesab edir. Onun sözlərinə görə, burda yüksək texnologiyalar, nəqliyyat sahəsi və digər sahələr birləşir. "Nazirliyin fəaliyyəti çoxşaxəlidir. Burda ixtisaslaşmış QHT-lər öz sahələri üzrə işlərlə məşğul olur. Şəxsən mən nəqliyyat sahəsi üzrə proseslərdə iştirak edirəm. Nazir Rəşad Nəbiyev ilk aylarda bizi qəbul edib. Nazir müavinləri Rövşən Rüstəmov, Rəhman Hümmətov və nazirliyin digər məsul əməkdaşları bizimlə ünsiyyətdədir. Dövlət Avtomobil Xidmətinin rəsi Anar Rzayevlə demək olar ki, mütəmadi əlaqədəyik. Hər xırda məsələni onlara burbaşa yönləndirə bilirəm. Bu çox gözəl bir nümunədir. Eyni zamanda nazirin müşaviri Rəşad Bayramov da bu məsələdə yaxından bizə dəstək olur. Şuranın digər üzvləri də fəaliyyətdədirlər . Bu yaxınlarda geniş tədbirə hazırlaşırıq. Düşünürəm ki, səmərəli əməkdaşlıq nəticəsində ətraf mühitin qorunması ilə bağlı geniş tədbirlər keçirəcəyik".

Bütün deyilənlərə əsasən E.Muradov ictimai şuraların ilk mərhələ üçün heç də az fəaliyyət göstərmədiyini önə çəkib. Onun sözlərinə görə, qanunvericilikdə nəzərdə tutulan qaydalara əsasən ictimai şuralara daha geniş imkanlar yaradıla bilər.

**■ Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında ictimai şuranın üzvü, gənclərlə iş komitəsinin sədri Asim Vəliyev hafta.az-a bildirib ki, İctimai Şuralarla bağlı müddəanın əksini tapdığı "İctimai iştirakçılıq haqqında" qanun 2014-cü ildə qəbul olunub.**

"Bu qanun 2014-cü ildə qüvvəyə minib. Qanunun məqsədi ölkədə ictimai nəzarət mexanizminin yaradılmasını sürətləndirmək, dövlət qurumları, rəsmi qurumlar üzərində vətəndaş cəmiyyətinin məqsədi dövlət qurumlarının fəaliyyətinə nəzarət etməkdir. Əvvəla, onu deyim ki, İctimai Şuraların fəaliyyəti barədə fikir söyləyərkən bir sıra amilləri nəzərə almaq və subyektlər arasındakı münasibətləri doğru təsvir etmək lazımdır: "Adlarından da göründüyü kimi, ictimai şuralar hansısa mərkəzi və ya yerli icra hakimiyyəti qurumunun yanında fəaliyyət göstərirlər. Əgər ictimai şuraların qanunvericiliyin tələblərinə uyğun fəaliyyət göstərməsi müvafiq yerli və ya mərkəzi icra hakimiyyəti orqanını qane etməsə İctimai Şuraların effektiv fəaliyyətini təşkil etmək çox çətin olacaq. Etiraf edək ki, vətəndaş cəmiyyəti institutlarımız hazırda bu səviyyədə əngəli aşmaq gücündə deyillər. Ona görə də burada tərəflərlərin cəmiyyətin və dövlətin ümumi inkişafı naminə birgə və qarşılıqlı səmərəli fəaliyyətindən asılıdır.

Digər yandan maraqlıdır ki, hələ də bir sıra mərkəzi dövlət qurumları ictimai şuraları özlərinə əngəl, problem yaradan təsisat kimi gördüyündən onu yaradılmasından faktiki olaraq imtina edirlər.

Burada əsas povitiv məqam həm də budur ki, QHT sektorunda olan şəxslər elə mətbuat nümayəndələri də dövlət qurumları yanındakı ictimai şuralarda təmsil olunmağa həvəslidirlər. Buna can atırlar, laqeyid deyillər. İctimai şuralara maddi gəlir qazanacağı iş yeri kimi baxmaq olmaz. Əks halda, ictimai şuralar həmin dövlət qurumlarının yan təşkilatına və təbliğatçısına çevriləcək".

*✍ Tahirə Qafarlı*

# Laçında son vəziyyət

**Azərbaycan Respublikasının qərbində, Kiçik Qafqazda, Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində yerləşən Laçın rayonu 1992-ci il 18 maydan etibarən Ermənistan silahlı qüvvələrinin işğalı altında olub. Rayon ərazisinin əksər hissəsi yalnız 28 ildən sonra Azərbaycan Ordusunun II Qarabağ savaşındakı qələbəsindən sonra 2020-ci il dekabrın 1-də Azərbaycana qaytarılıb. Qeyd edək ki, Laçın rayonunun bütövlükdə sahəsi bəzi mənbələrdə yanlış olaraq göstərildiyi kimi, 1800 kv.km yox, hazırkı "dəhliz" adlanan ərazi də daxil olmaqla, 1835 kv.km.-dir.**



## Araşdırma

Azərbaycan mənbələrinə görə, 1980-ci illərin sonunda rayonda vur-tut üç erməni yaşayıb, başqa mənbələrdə isə 1970-ci illərdə bu say cəmi 34 nəfər kimi göstərilir.

İşğal dövründə Laçın rayonuna Ermənistandan və son vaxtlar Livan və Suriyadan ermənilər köçürülüb. Azərbaycan bu köçürmələri beynəlxalq hüququn pozulması kimi qiymətləndirib.

Laçın rayonu Azərbaycan Ordusunun 44 günlük müzəffər savaşının sonunda 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən Qarabağda hərbi əməliyyatların bitməsi və atəşkəs barədə birgə Bəyanat imzalandıqdan sonra geri qaytarılıb.

10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Laçın rayonunun Rusiya "sülhməramlı" qüvvələrinin nəzarətinə keçmiş hava xətti ilə 5 kilometr enliyində olan və təxminən, 35 kv.km.-lik ərazisi Laçın dəhlizi adlanır. Qeyd edək ki, əslində dağ relyefini də nəzərə alsaq, quru xətti ilə dəhlizin eni azı 15-20 km.-dək uzanır... Ermənistan ərazisini keçmiş Dağlıq Qarabağ ərazisi ilə birləşdirən dəhliz daha sonra Şuşa şəhərinə və həmin rayonun 9 noyabr 2020-ci il tarixində azad edilmiş Daşaltı kəndinə toxunmadan Xankəndinədək davam edir və ona nəzarəti Rusiya sülhməramlı sayılan hərbi kontingenti həyata keçirir. Qeyd edək ki, Şuşa rayonunun digər 36 kəndi və digər qəsəbəsi də rəsmən Rusiya qüvvələrinin nəzarətindədir və separatçı-terrorçu rejim də həmin ərazilərdə sərbəst fəaliyyət göstərir.

10 Noyabr razılaşmasına əsasən, növbəti 3 il ərzində tərəflərin razılığı əsasında Yuxarı Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşasına artıq başlanılıb. Buna uyğun olaraq həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi də nəzərdə tutulur.

Azərbaycan mənbələrinin məlumatına görə, Laçına alternativ yol Ermənistanın Sünik rayonunun Gorunzur kəndindən başlayacaq. Laçın rayonunun Zabux yaxınlığındakı Qayğı qəsəbəsindən, Şuşa rayonunun Aşağı və Yuxarı Qaladərəsi kəndlərindən keçərək dağların arasından Xankəndinə çatacaq.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədovun hələ 2022-ci ilin fevral ayında verdiyi açıqlamaya görə, həmin marşrut üzrə tikinti işləri davam edir və cari ilin iyul ayına qədər istifadəyə veriləcəyi gözlənilir.

Hələlik isə Laçın şəhəri düz, Gorus-Laçın yolunun üzərində yerləşən Zabux kəndi, şimal istiqamətində 5 km dəhlizə daxil olan Sus və Qarıkaha kəndləri, cənub istiqamətindən isə Ağanus və Kəravuz kəndləri Rusiya ordusunun məsuliyyət zonasına aiddir.

Hafta.az Rusiyanın sülhməramlı sayılan qüvvələrinin nəzarətindəki və ermənilərin hələ də yaşadığı bu Azərbaycan torpaqlarında hazırkı gerçək durum barədə qısa araşdırma aparıb.

Laçın rayonunun əksər hissəsi Azərbaycan qaytarılmazdan bir müddət əvvəl Ermənistan mediası Laçın şəhərində və iki kənddə (Zabux və Sus) erməni əhalisinin daimi qalacağına dair iddialara dair xəbərlər çap edib. Azərbaycan rəsmiləri buna şərh verməyib. Sosial Tədqiqatlar Mərkəzinin sədri, deputat Zahid Oruc Laçın rayonunun bütövlükdə təhvil verilməməsinə dair ehtimalları rədd edib.

Son məlumatlara görə, hazırda Laçın rayon mərkəzində, təxminən, 70 erməni ailəsi, yaxud 200-ə yaxın erməni sülənir. Müharibədən əvvəl isə Laçın şəhərində, təxminən, 2200 erməni yaşayıb. Şəhərdə banklar və bankomatlar da işləmir. Qida və digər malların satıldığı yalnız iki pərakəndə satış məntəqəsi var. Laçında 3-4 "Artsax" "polis"i də fəaliyyət göstərir. Lakin hər şey əsasən Rusiya sülhməramlıları tərəfindən idarə olunur.

Laçındakı xəstəxana binası da "sülhməramlı"lara təhvil verilib. Şəhərdə heç bir məktəb işləmədiyindən 11 erməni uşağı hər gün Ermənistanla sərhəddə yerləşən Zabux kəndindəki terrorçu Qaregin Njde adına məktəbə gedib-gəlir.

Laçın dəhlizi adlanan əraziyə Ermənistan tərəfindən bu qəsbkar ölkənin və Rusiyanın vətəndaşları, o cümlədən Ermənistanın və separatçı rejimin məmurları sərbəst buraxılır... Azərbaycan Respublikasının Kəlbəcər və Qubadlı istiqamətlərindəki ərazilərindən isə yalnız rəsmi Bakının xüsusi icazəsi olduğu halda hərbçilərimiz və digər vətəndaşlarımızın Laçın şəhərinə keçməsinə izn verilir. Cənub tərəfdən Ağanus kəndi, şimal tərəfdən isə Qarıkaha kəndindəki Rusiya hərbçilərinin qurduğu postlardan keçəndən sonra avtomobillərdə və ya əllərdə Azərbaycan bayrağı qaldırmaq olmaz. Eyni zamanda xüsusi icazə alan yerli və ya xarici jurnalistlər istisna olmaqla foto və videoçəkilişlər də qadağan edilir...

Laçın şəhərindəki və Sus kəndindəki haylar radikal, revanşist çıxışlar etmirlər, sakitcə başlarını girləyirlər. Onlardan fərqli olaraq XX əsrin əvvəlində xalq qəhrəmanı Sultanbəy tərəfindən tayqulaq erməni generalı Andranikin qoşununun darmadağın edildiyi Zabux kəndində sanki Azərbaycanın acığına hələ 2011-ci ildə Suriyanın Əl-Kamışlı şəhərindən qeyri-qanuni olaraq köçürülmüş və tayqulaq sələfinin adını daşıyan Andranik Çavuşyan adlı qanunsuz "mer" irqçi və revanşist çıxışlar edir, bu kəndin "onların vətəni" olduğunu və "buradan çıxmayacaqları"nı söyləyir.

Ötəni ilin yazında o, Zabux kəndində terrorçu, faşist Qaregin Njdeyə heykəl qoymağa hazırlaşmasından da danışıb. 2021-ci ilin dekabrında Zabuxda Ermənistanın "Genezis Armenia" şirkətinin maliyyəsi hesabına yeni çörək sexi açılıb. Bu il aprel ayının 23-də Qondarma erməni "soyqırımı"nın "107-ci ildönümü" ərəfəsində Azərbaycanın bu kəndindəki ermənilər üzdəniraq "məşəl yürüşü" də keçirilib. Bundan əlavə, Zabuxda erməni Pasxa bayramının özü və ondan öncəki bazar günü keçirilən "Tsaxkazard" adlanan bayram qeyd edilib və bunlara aid foto və video-görüntülər də yayılıb.

Zabux kəndi hazırda Laçın rayonunun bilavasitə "Laçın dəhlizi" adlanan hissəsində - Zabux çayının sahilində, Qarabağ yaylasında yerləşir. Bəzi məlumatlara görə, əvvəllər bu ərazidə Sus-Zabux adlı başqa kənd də olub.

XIX əsrdə, yəni Çar Rusiyası dövründə rusların çəkdiyi Şuşa-Gorus yolunun döngəsində poçt dayanacağı olmuş və mövqeyinə görə ruslar bu yaşayış məntəqəsini "Za buqrom"(təpənin arxasında) birləşməsinin əsasında qısaca "Zabuq" adlandırmışlar. Sonradan bu söz Azərbaycan tükcəsindəki tələffüzünə uyğunlaşaraq "Zabux" şəklinə düşüb.

### "Dəhliz" ərazisindəki 5 kənddə tarixboyu erməni yaşamayıb...

Yeddicildlik Azərbaycan tarixində yazıldığına görə, Ermənistan işğalı dövründə Zabuxda başçısı Zeylan Öcalan olan "Kürd konqresi" terrorçu qrupu yerləşdirilmişdir (Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı. "Elm". 2008. səh. 268)...

Yarandığı gündən kənddə bir erməni də yaşamayıb. 1992-ci ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilib. Son məlumatlara görə, Zabuxun didərgin azərbaycanlı əhalisinin sayı 800 nəfərə yaxındır...

10 Noyabr üçtərəfli razılaşmasına əsasən kənd artıq 1 il 6 aydan çoxdur ki, Rusiyanın rəsmən sülhməramlı sayılan hərbi kontingentinin nəzarətindədir. Həmin kontingentin Azərbaycanın Ermənistanla rəsmi dövlət sərhədindəki 1 nömrəli postu məhz Zabux kəndində yerləşir...

Onu da xatırladaq ki, 1919-cu ilin yazında məhz Zabux kəndi ərazisində, "Zabux dərəsi" deyilən bu yerdə xalq qəhrəmanı Sultanbəy tayqulaq erməni sərkərdəsi Andranikin on minlərlə ermənidən ibarət qoşununu darmadağın etmiş, Andranik özü isə biabırçı şəkildə arvad paltarı geyinərək aradan çıxa bilmişdir. Onun qulağını hələ Osmanlı ordusunda xidmət etdiyi zaman ruslara yardım göstərərək xəyanət etdiyinə görə bir türk paşası kəsib...



Zabux kənd inzibati ərazi dairəsində yerləşən və Laçın dəhlizinə daxil olan Sus kəndində cəmi 3 erməni ailəsi qalıb ki, onların da ikisi hələ ötən il avqustun sonunadək Ermənistana, oradan da Rusiyanın Krasnodar diyarına yollanmaq niyyətində olduğunu açıqlamışdı. Sus kəndi Həkəri və Zabux çaylarının sahilində, Qarabağ yaylasındadır. Oykonim "sulu yer" mənasındadır.

"Sülhməramlı"ların xəritəsində 27-ci postlarının yerləşdiyi qey edilən Ağanus kəndi Azərbaycan Respublikasının Laçın rayonu Fətəlipəyə kənd inzibati ərazi dairəsində kənddir.

Bəzi məlumatlara görə, adını ərazidəki eyni-adlı mineral bulaqdan almışdır. Hidronim ağan/aqan (iti axan) və us (su) sözlərindən düzəlib, "iti axan su" deməkdir.

Digər tədqiqatçılara görə isə, toponim ağ və naus (ərəbcə "məbəd" sözləinin birləşməsindən yaranıb. Sasanilər dövründə zərdüştiliyə sitayiş edənlərin qəbirüstü tikilisi də "naus" adlanırdı) sözlərindən düzəlib, "ağrəngli məbəd" mənasını ifadə edir.

1992-ci ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilən kənd

2020-ci ildə İkinci Qarabağ müharibəsi sonunda imzalanmış atəşkəs bəyanatına əsasən 1 dekabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad olunub.

Rusiya "sülhməramlı"larının postlarından biri Fətəlipəyə və Ağanus kəndləri arasında qurulub.

Ağanus kəndinin Qubadlı-Laçın yolu üzərində yerləşən və el arasında Turşsu adlanan cənub hissəsində cəmi bir neçə ev salamat qalıb. Ətrafdakı meşələrin bir hissəsi işğalçı ermənilər tərəfindən qırılıb. Kənd klubu, keçmiş kolxoz ferması darmadağın edilib. İşğaladək asfalt olan və Bakı-Laçın, Sumqayıt-Laçın sərnişin avtobuslarının da keçib getdiyi yol bərbad hala düşüb. Ağanusun cənib hissəsində işğal dövründə bir neçə erməni ailəsi yaşayıb ki, onlar da 44 günlük savaşdan sonra ərazini tərk ediblər.

Qeyd edək ki, Ağanus kəndinin cənub hissəsi ərazidə narzan tipli məşhur mineral bulaq olması səbəbindən Turşsu da adlanır. İşğaladək Laçın rayonuna gələn qonaqların əksəriyyəti həmin bulağın yanındakı pavilyonlarda yeyib-içib istirahət ediblər.

Ermənilər 28 il ərzində Turşsu bulağı ətrafında heç bir abadlıq işləri aparmayıb. Əksinə, oradakı kafe və pavilyonları talan ediblər. Bulağın üzərində Laçında gorbagor olmuş işğalçı hərbçilərin "xatirəsi"nə xaçkar qoyublar.

Ağanus kəndi Laçının qədim kəndlərindən biridir. Sonradan Rusiya imperiyası tərəfindən Şuşanın qonşu Yuxarl Qaladərəsi və Aşağı Qaladərəsi (Kirov) kəndlərinə köçürülmüş ermənilər XX əsrin əvvəllərindən bəri bu kəndi 4 dəfə hücuma məruz qoyaraq yandırıb, əhalisini didərgin salıblar. Peyk görüntülərindən də bəlli olur ki, 1992-ci ildə baş vermiş erməni işğalından sonra Ağanus kəndinin yuxarı hissəsində məktəb binası da daxil olmaqla heç bir bina, ev salamat qalmayıb...

Ağanus kəndinin şimal hissəsinin yaxınlığında isə 1782 metr hündürlüyündəki strateji Ağdaş yüksəkliyi yerləşir. Həmin yüksəklikdən Şuşa rayonunun hazırda ermənilərin məskunlaşdığı Aşağı və Yuxarı Qaladərəsi, eləcə də Salatınkənd (Sarıbaba), Göytala kəndlərinə, həmçinin Şuşa-Laçın və Qubadlı-Laçın yollarına nəzarət etmək mümkündür. 10 Noyabr razılaşmasına əsasən həmin yüksəklikdə Azərbaycan ordusunun postu yerləşdirilib və orada "Azersell" rabitə qülləsi quraşdırılıb. Ötən bir il 6 ay ərzində erməni mediasında yayılmış məlumatlara görə, Aşağı Qaladərəsindəki haylar dəfələrlə Rusiya hərbçilərinə guya sözügedən Ağdaş yüksəkliyindəki Azərbaycan hərbçiləri tərəfindən onlara qarşı təhlükə yaranması haqda müraciətlər ediblər. Yəni onların məqsədi həmin yüksəklikdə Rusiya hərbçilərinin yerləşdirilməsi olub.

44 günlük müharibə zamanı cəbhədən təxribat xarakterli məlumatlar yayan Rusiyanın "War-Gonzo" layihəsinin jurnalisti Semyon Peqov da Aşağı Qaladərəsinə gələrək separatçı ermənilərin istəyinə uyğun eyni hədyanları təkrarlamışdı. Qeyd edək ki, Aşağı Qaladərəsi kəndində Rusiya hərbçilərinin yerləşməsi dəqiqdir. Oradan bir neçə dəfə bunu təsdiq edən görüntülər də yayılıb...

Fətəlipəyə inzibati dairəsinə aid olan Kəravuz kəndi çox kiçik kənd olub. Hazırda həmin kənddə də heç bir erməni yaşamır.

Nəhayət, şimal Kəlbəcər istiqamətindən Laçın dəhlizinin "qapısı" olan Qarıkaha - Azərbaycan Respublikasının Laçın rayonunun Laçın şəhər inzibati ərazi dairəsində kənddir.

Qarıkaha kəndi Həkəri çayının sol sahilində, Qarabağ silsiləsinin ətəyindədir. Abdallar kəndindən (1923-cu ilədək Laçın şəhərinin adı) köçmüş ailələrin Qarıkahası adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır. Yer isə oradakı Qarı kahası adlı mağaranın adı ilə adlanmışdır. Toponim "qoca qadına məxsus mağara" və yaxud "köhnə oyuq, köhnə quyu" mənalarındadır.

Hazırda bu kənddə də heç bir erməni yaşamır.

Onu da vurğulayaq ki, Laçın rayonunun digər kəndləri kimi, "dəhliz" ərazisindəki 5 kənddə tarix boyu heç bir erməni yaşamayıb. Qeyd edək ki, bu günlərdə Kəlbəcər kimi, Laçın rayonu ərazisinə də arıçılıq və heyvandarlıq təsərrüfatlarının köçü başlanıb. İnşallah, bütün Laçın rayonunun, o cümlədən "dəhliz"dəki kəndlərinin sakinlərinin də öz doğma yurdlarına dönəcəkləri günləri görəcəyik...

***✍ Sultan Laçın***

## Müsahib



**Etibar Məmmədov,**
AMİP lideri, istiqlalçı deputat

***AMİP lideri, istiqlalçı deputat Etibar Məmmədovla hafta.az üçün budəfəki söhbətimizdə 28 il öncə I Qarabağ savaşında Azərbaycanın Ermənistanla əldə etdiyi atəşkəs razılaşması, onun 3 onillik ərzində törətdiyi fəsadlar, nəhayət, 2020-ci ilin payızındakı müzəffər II Qarabağ savaşından sonra yaranmış yeni hərbi-siyasi durumda Azərbaycan qarşısındakı əsas vəzifələr, həmçinin Ukraynadakı savaşla bağlı həmin ölkədə və Rusiyada gözlənilən proseslərdən və s. bəhs etdik.***

# "Rus səfir Azərbaycanın iki yerə bölünəcəyi ilə hədələyirdi..."

***- Etibar bəy, siz I Qarabağ savaşının getdiyi 1988-1994-cü illərdəki ictimai-siyasi proseslərdə fəal iştirak etmiş siyasi liderlərdən biri olmusunuz. Eyni zamanda, bir müddət respublika Müdafiə Şurasının üzvü kimi hərbi-siyasi proseslərin gedişinə də qatılmısınız. Necə hesab edirsiniz, 28 il öncə - 1994-cü ilin mayında Azərbaycanın Ermənistanla atəşkəs razılığı əldə etməsi nə dərəcədə zəruri idi, doğrudanmı başqa yol yox idi?..***

- 1994-cü ilin bu günlərində, təəssüf ki, hərbi üstünlük Ermənistan tərəfdə idi. Daha doğrusu, Rusiya Ermənistana hərtərəfli kömək etdiyindən bu, belə idi. Azərbaycanda isə ordunun formalaşması prosesi hələ başa çatmamışdı. Yəni nizami ordunun yaradılması prosesi davam edirdi. Ordunun silah və texnika ilə, eləcə də gərəkli kadrlarla təminatında böyük problemlər yaşanırdı. O günlər Rusiya da Ermənistanın tərəfində duraraq Azərbaycanı hədələyirdi ki, erməni qüvvələrinin Kürə çıxması ilə ölkə iki yerə parçalana bilər. Təbii ki, bu halda Gəncə də təhlükə altında qalırdı. Rusiyanın Azərbaycandakı ovaxtkı səfiri Valter Şoniya və Rusiya Prezidentinin Qarabağ üzrə səlahiyyətli nümayəndəsi Vladimir Kazimirov işğal barədə hədələrini açıq-aşkar ifadə edirdilər. Bir sözlə, Azərbaycanın hərbi-siyasi mövqeyi yetərincə güclü deyildi. Müttəfiqləri də yox səviyyəsində idi. Mövcud olan müttəfiqləri də kömək etmək iqtidarında deyildi. Bu səbəblərdən 1994-cü ildə Ermənistanla atəşkəs haqqında razılıq əldə olunması məcburi addım idi. Hamı, o cümlədən biz, hakimiyyət də atəşkəsə getməyə məcbur idi

***- Atəşkəsin 26 ilədək uzanmasında daxili, yoxsa xarici amillər əsas rol oynadı?***

- Burada həm xarici, həm də daxili amillər böyük rol oynayırdı. 1994-1995-ci illərdən başlayaraq atəşkəs müddəti dövründə həm Qərb, həm də Rusiya tərəfindən Azərbaycana reallıqla, yəni işğal altındakı torpaqların Ermənistana məxsusluğu ilə barışması və bunun rəsmiləşdirilməsi üçün təzyiqlər vardı. Şuşa da daxil olmaqla, keçmiş Dağlıq Qarabağ ərazisi Ermənistana birləşməli idi, həm də ətraf 6 rayondan Ermənistan ordusu bu şərtlə çıxmalı idi ki, həmin ərazilərdə Azərbaycan Silahlı Qüvvələri yerləşdirilməsin. Buna demilitarizasiya deyirdilər. Eyni zamanda, Laçın və Kəlbəcər rayonları qeyri-müəyyən müddətə Ermənistanın nəzarətində qalmalı idi. Təbii ki, Azərbaycan hökuməti bütün bunlarla razılaşmayaraq, dözüm göstərirdi. Xalq da, əksər siyasi qüvvələr də Qarabağ məsələsinin birdəfəlik hərbi yolla ədalətli həllini tələb edirdi. Hakimiyyət problemin siyasi-diplomatik yollarla həllinin mümkünlüyündə inad edirdi. Nəhayət, sonda iqtidar tam əmin oldu ki, torpaqlarımızın işğaldan azad edilməsinin yeganə yolu hərbi-siyasi yoldur. Yəni hərbi qələbədən sonra bu, siyasi cəhətdən rəsmiləşdirilməli idi. Bu da nəhayət, 2020-ci ildə baş verdi

***- 26 illik atəşkəsin Azərbaycan dövləti və xalqı üçün müsbət tərəfləri, faydası oldumu?***

- Bu illər ərzində genişmiqyaslı hərbi əməliyyatların aparılmamasının müsbət tərəfi ondan ibarət oldu ki, Azərbaycan dövləti öz qüvvələrini toplamaq, təmərküzləşdirmək üçün böyük vaxt əldə etdi. Həmin müddət ərzində nizami ordu yaradılması prosesi davam etdirildi, yeni kadrlar yetişdirildi. Eyni zamanda müəyyən mərhələdən sonra Türkiyə Silahlı Qüvvələri də Milli Ordumuzun formalaşması prosesinə qoşuldu. Düzdür, qardaş ölkənin əvvəlcə bu işimizə dəstəyi vardı, ancaq böyük səviyyədə deyildi. Bundan sonra isə çox genişmiqyaslı Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı başlandı. Məhz Türkiyə ordu sisteminə uyğun hərbi kadrlarımız yetişdirildi. Ovaxtadək Azərbaycanın hərbi kadrları, əsasən, Rusiya hərbi məktəblərində təhsil alıb yetişirdi və təbii ki, əksəriyyəti də Moskvanın təsiri altında olurdu. Ordumuzun aparıcı kadrlarının Rusiyanın təsirindən çıxarılması prosesi də xeyli vaxt aldı. Amma təəssüf ki, Rusiya bu gün də hərbi sahəmizə təsirini itirməyib...

***- Həddindən artıq uzunmüddətli atəşkəs dövrünün mənfi cəhətlərini nələrdə görürsünüz?***

- Uzunmüddətli atəşkəsin mənfi tərəfi o idi ki, 1 milyondan çox soydaşımız öz doğma yurd-yuvalarından kənarda evsiz-eşiksiz qalmışdı. Bunun eyni zamanda mənəvi-psixoloji tərəfi də vardı ki, millət, xalq başqaları qarşısında özünü məğlub, başıaşağı hiss edirdi. Bunun aradan qaldırılması üçün də mütləq hərbi qələbə lazım idi. Nəhayət ki, II Qarabağ savaşında, yəni 2020-ci ilin payızında şəhid və qazilərimizin canı-qanı hesabına qazandığımız hərbi qələbəmizdən sonra hər bir Azərbaycan vətəndaşı başıdik gəzə bilər...

***- İkinci Qarabağ savaşında, yəni 2020-ci ilin payızında Azərbaycan Ordusu Ermənistan üzərində danılmaz qələbə əldə etsə də, hələ işğal altındakı bütün ərazilərimiz tam nəzarətimizə keçmədi. Bu baxımdan, 10 noyabr 2020-ci il tarixli üçtərəfli razılaşma da faktiki atəşkəs razılaşmasıdır. Sizcə, budəfəki atəşkəs də xarici güclərin təzyiqi altında neçə illər uzana bilər, yoxsa yaxın illərdə məsələni kökündən həll edə biləcəyik?***

- Bu, yenə də Azərbaycanın gücündən asılı olacaq. Azərbaycanın iqtisadi, hərbi gücü formalaşıb, müttəfiqləri də mövcuddur. Ermənistanın müttəfiqi olan Rusiya isə artıq hazırkı prosesdə məğlub durumdadır. Yəni ona istədiyi köməyi edə bilməyəcək. Buna baxmayaraq Ermənistanın Qərbdə də müttəfiq və tərəfdarları çoxdur. Bu baxımdan da hazırda əsas məsələ işğaldan azad edilmiş torpaqların sürətlə məskunlaşdırılması, yəni əhalinin o ərazilərdə daimi yaşayış üçün yerləşdirilməsidir. Birinci ərazi hərbi cəhətdən mənimsənilməlidir, yəni hərbi qüvvələrin müvafiq strukturları, infrastrukturu yaradılmalıdır. Bu proses artıq gedir. Əsas proses, bir daha təkrar edirəm, həmin torpaqların məskunlaşdırılmasıdır. Əhali oraya köçürülməli və o torpaqlar əsl sahibləri tərəfindən mənimsənilməlidir. Ondan sonra da digər proseslər gedə bilər...

***- Rusiyanın Ukraynaya təcavüzündən sonra başlanmış son prosesləri, xüsusən Rusiya lideri Putinin Moskvada qəbul etdiyi məlum 9 May paradından sonrakı hərbi-siyasi durumu necə xarakterizə edərdiniz?***

- Rusiyanın mayın 9-da paradı olmadı... O, başdan-ayağa ağlaşma idi (gülür)... Onlar, hətta öz aviasiyalarını nümayiş etdirə bilmədilər. Ali Baş Komandanın təyyarəsi nasazdırsa, göyə qalxa bilmirsə, Rusiya dünyanı nə ilə qorxuda bilər? Rusiya bütövlükdə nasaz, idarə olunmayan və idarə oluna bilməyən bir dövlətə çevrilib. İndiyədək qonşularını və dünyanı hərbi qüvvələri, ordularıyla təhdid edirdilər. Ancaq Ukraynaya təcavüzdən sonra bəlli oldu ki, Kremlin hərbi qüvvəsi də gözlənilən, təsəvvür olunan səviyyədə deyil, ondan çox-çox aşağıdır.

Və Rusiya ordusu uzunmüddətli hərbi qarşıdurmaya, müharibəyə hazır durumda deyil. Yəni bu, Rusiyanın sırf hərbi baxımdan da zəifliyini nümayiş etdirdi. İndi əllərində yalnız nüvə təhdidi məsələsi qalıb. Ancaq hamı bilir ki, bu addımı reallaşdırmaq bütün planeti məhvə aparmaq deməkdir. Buna Rusiyanın rəhbərliyi daxilində də, zənnimcə, heç kəs imkan verməz...

***- Belə çıxır ki, Ukraynanın işğalçı Rusiya ordusunu öz torpaqlarından çıxarıb qəti qələbə əldə etmək şansı çoxalıb?***

- Bu proses müəyyən qədər vaxt alacaq. Prosesin indiki dönəmində artıq Rusiya məğlub tərəf kimi görünür. Ukrayna xalqı bu müharibədə bir millət kimi sanki yenidən formalaşdı, həm dövlətinin güclənməsinə nail oldu, həm də bir xalq kimi mənəvi cəhətdən üstünlük əldə etdi. Bütün dünya da Ukraynanın tərəfində dayandı. Və bundan sonrakı mərhələdə artıq sırf hərbi-texniki məsələlər qalır; Rusiya qoşunlarının ölkə ərazilərindən çıxarılması prosesini yekunlaşdırmaq. Hələlik isə Azov və Qara dəniz sahillərini möhkəmləndirib qorumaq məsələsi, vəzifəsi ön plandadır. Rusiya çalışır ki, Ukraynanı bir dövlət olaraq dənizlərdən ayırsın və təcrid olunmuş bir duruma salsın. İndi əsas mübarizə bu sahədə gedəcək.

***- Ukrayna torpaqlarını ədalətsiz və amansız formada işğal etməsindən sonra Qərbin, ABŞ-ın sərt sanksiyalarına məruz qalmış, siyasi və iqtisadi böhran içində olan Rusiyada yaxın illər ərzində başqa hakimiyyət qurula biləcəkmi?***

- Rusiyada yaxın illərdə demokratik bir iqtidar formalaşacağına inanmıram hələ... Çünki hələ xalqın özü buna hazır olub həmin istiqamətdə formalaşmalıdır. Təəssüf ki, Rusiya xalqının buna hazır olması görünmür. Elita da belə bir dəyişikliyə hazır olmalıdır. Odur ki, hələ yeni elitanın formalaşmasına da ehtiyac var. Hazırkı durumda Rusiyada böhranın getdikcə dərinləşəcəyi görünür. Yəni hərbi-siyasi böhrandan sonra daxili siyasi böhran başlamalıdır...

***- Putin yaxın müddətdə hakimiyyətdən getsə də, hələ Rusiya rəhbərliyini yenə də elə onu vaxtilə hakimiyyətə gətirmiş "FSB" oliqarxiya birliyi formalaşdıracaq...***

- Hakimiyyətdə olanın getməsi ilə məsələ həll olunmur. Həmin hakimiyyəti əldə edib, sonra da normal şəkildə idarə etməyə hazır yeni qüvvələr formalaşmalıdır. Rusiyada həmin yeni qüvvələr hələ də görünmür. Görünən hissəsi indiki elitanın daxilindədir. Onların isə Rusiyadakı hakimiyyətin xarakterini dəyişməyə nə dərəcədə qabil olduqları hələ məlum deyil.

*"Hazırda əsas məsələ işğaldan azad edilmiş torpaqların sürətlə məskunlaşdırılması, yəni əhalinin o ərazilərdə daimi yaşayış üçün yerləşdirilməsidir*

***✍ Sultan***

# Distant təhsilə hazırıqmı?

## Layiha

***Azərbaycanda təhsilin distant formasının tətbiqi planlaşdırılır. Belə ki, bu yaxınlarda təhsil naziri Emin Əmrullayev ölkəmizdə distant təhsil formasının tətbiqi istiqamətində işlər görüldüyünü bildirib. Nazir vurğulayıb ki, distant təhsilin bu və ya digər şəkildə tanınması üçün zəruri şərt həmin proqramın akkreditasiya olunmasıdır: ”Azərbaycanda hazırda keyfiyyət təminatı almış distant tədris proqramı yoxdur. Bu istiqamətdə qanunvericilik bazasının formalaşması üçün Milli Məclisin Elm və təhsil komitəsi ilə birgə işlər görülür. Distant təhsil tədrisin yalnız formasıdır, orada verilən bilik və bacarığın diplomla tanınması üçün həmin proqram mütləq qaydada keyfiyyət təminatı sistemindən keçməlidir.***



Yəqin ki, zamanla bu istiqamətdə təhsil sistemi olaraq irəliyə doğru gedəcəyik. Amma heç bir formatda distant təhsilin diplom paylanılması və ya qeyri-qanuni diplom alınmasına çevrilməsini istəmirik. Əgər bunu edəcəyiksə, dünya miqyasında qəbul olunmuş standartlar çərçivəsində etməyi düşünürük”.

Qeyd edək ki, bu gün distant təhsil bütün dünyada istifadə olunur və artıq günün reallığıdır. Azərbaycanın ”Təhsil haqqında” qanununda təhsilin əyani, qiyabi və distant olmaqla üç forması göstərilib. Distant təhsil əyani təhsilin bir formasıdır. Mütəxəssislər hesab edirlər ki, əslində pandemiya dövründə distant təhsilin faydalarını müşahidə edə bildik. Çünki məktəblər, universitetlər bağlı idi, amma təhsil davam edirdi. Artıq texnologiya o qədər inkişaf edib ki, distant təhsilə keçid edə bilərik. Distant təhsilin əyani təhsilə nisbətən müəyyən problemləri var.

Bir çox inkişaf etmiş ölkələr illərdir distant təhsil verir və verdikləri diplom da kifayət qədər ciddidir.Bunun nəticəsidir ki, distant, yəni müəyyən məsafədən keçirilən təlim-tədris sistemi yaranıb. Distant təhsilin xarakterik xüsusiyyətlərinə çeviklik, modulluluq, iqtisadi səmərəlilik, müəllimin yeni rolu, təhsilin keyfiyyətinə xüsusi nəzarət, müasir texnologiyalardan istifadə və s. aiddir. Distant təhsildə informasiyalar öyrənənlərə elektron materiallar, elektron dərslik, audio-video disklər və s. formalarda təqdim edilir. Distant təhsildə tədris metodik kompleksdən, kompyuter, audio-video maqnitofon, multimedia texnikası və s. kimi təlim vasitələrindən istifadə olunur.

Beynəlxalq statistikaya görə, distant təhsildə tələbələrin əksəriyyəti yaşı 25-i ötmüş, işləyən və işdən ayrılmadan peşəkar biliklərini genişləndirmək istəyən şəxslərdir. Bununla belə, distant təhsil forması hamı üçün münasibdir. Bu, illər ötdükcə daha çox inkişaf edəcək müasir təhsil formasıdır. Amma istənilən təhsil forması kimi distant təhsilin də həm müsbət, həm də mənfi cəhətləri var. Distant təhsilin müsbət cəhətləri ənənəvi sistem üzrə aparılan analoji təhsil kurslarından xeyli ucuz olmasıdır. Təhsil müəssisələri icarə haqqına, elektrik enerjisinə və bahalı texnikaya qənaət edir, çünki təhsil üçün ayrıca otaqlar və kompyuterlər tələb olunmur. Bundan əlavə, vaxtın çox hissəsini tələbələr müstəqil şəkildə məşğul olurlar və deməli, müəllimlər eyni zamanda, daha çox tələbəni öyrədə bilərlər və bunun da sayəsində distant təhsilin qiyməti münasib olur.

> “
> *Əslində distant təhsil qiyabidən daha üstündür. Bu səbəbdən magistratura səviyyəsini daha çox bu formada təşkil etmək lazımdır*

Distant təhsil, ümumiyyətlə, hər hansı təhsil almaq imkanları olmayan şəhər və ölkələr üçün əvəzedilməzdir. Bu, təhsili hamı üçün əlçatan edir. Hesab olunur ki, distant təhsil vaxtının çoxunu işdə, uşaqlarla və ya ailəsi ilə keçirən insanlar üçün yeni biliklər və bacarıqlar əldə etmək üçün yeganə mümkün vasitədir. Hər hansı şəxs işini itirmək qorxusu olmadan və işdən ayrılmadan ixtisasını artırmaq və ya yeni biliklər əldə etmək imkanı əldə edir.

Mənfi cəhətlərinə gəlincə, mütəxəssislər hesab edirlər ki, bu tədris forması tələbələrin təhsil səviyyəsində və peşəkar təcrübəsində fərdi fərqləri nəzərə almağa imkan vermir. Təlim və imtahan telekonfranslarının təşkili üçün müxtəlif ölkələrin telefon xətlərinin keçiricilik qabiliyyəti kifayət etməyə bilər. Tələbələr tərəfindən mənfi qarşılana biləcək daha bir cəhət distant təhsil sistemində müəllim və tələbə arasında canlı ünsiyyətin itməsidir. Təlim kursları kifayət qədər interaktiv olmur. Distant təhsilin yekunlarına görə verilən diplom və ya sertifikat hələlik keyfiyyətli təhsilin göstəricisi kimi qəbul olunmur.



**Elçin Əfəndi,**
təhsil eksperti

**■ Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən təhsil eksperti Elçin Əfəndi deyib ki, hazırda dünyanın bir çox inkişaf etmiş ölkələrinin universitetlərində distant təhsil tətbiq olunur: “Bu gün Azərbaycanda da distant təhsilin tətbiqinə böyük ehtiyac var.** Azərbaycandan xaricə gedən gənclər arasında distant təhsil alan kifayət qədər tələbələrimiz var. Ancaq bizdə nədənsə distant təhsilin tətbiqi məsələsi gecikir. Pandemiya dövründə distant təhsilin tətbiqi ilə bağlı bir sıra çətinliklər yaşadıq. Çünki ölkənin təhsil sistemi buna hazır deyildi. Ən böyük çətinliklərlə isə universitetlər üzləşdilər. Yalnız müəyyən universitetlər var idi ki, onlarda distant təhsil ənənəsi mövcud idi və bir baza var idi. Ancaq onlar bu işin öhdəsindən gələ bilirlər. Bütün bunlar onu deməyə əsas verir ki, distant təhsil mütləq ölkəmizdə yaradılmalıdır. Bu istiqamətdə təhsil alanların diplomları da tanınmalıdır. Əslində distant təhsil qiyabidən daha üstündür. Bu səbəbdən magistratura səviyyəsini daha çox bu formada təşkil etmək lazımdır. Magistratura üzrə oxumaq istəyən şəxslər, əsasən, əmək fəaliyyəti ilə məşğul olurlar. Onlar üçün ən uyğun təhsil forması qiyabi formadır. Amma distant təhsil qiyabidən daha çox sərfəli və səmərəli təhsil formasıdır. Düşünürəm ki, ümumiyyətlə, bu formanı təsdiq etmək və magistratura təhsilini yalnız əyani deyil, daha çox distant formada təşkil etmək lazımdır. Belə olan halda maraq da artar və insanlar üçün də əlçatan olar. Təbii ki, əgər biz distant təhsili yaradırıqsa, o zaman mütləq güclü nəzarət mexanizmi yaradılmaldır. O baxımdan ki şəffaflıq təmin olunsun. Bunun üçün mütləq bir nəzarət tətbiq olunmaldıır ki, hər şəxs diplomun tanınması ilə bağlı saxtalığa əl atmasın. Düşünürəm ki, ölkəmizdə bunu tətbiq etməyimiz vacibdir”.

### Ekspert rəyi

**■ Mövzu ilə bağlı fikirlərini bildirən təhsil eksperti Kamran Əsədov isə deyib ki, əslində dünya ölkələri ötən əsrin 60-ci illərindən etibarən distant təhsil xidməti göstərirlər: “Bu gün ölkəmizdə distant təhsil ona görə tanınmır ki, bu formada təhsil alanların hansı müddət ərzində tədris prosesində iştirak etdiklərini, hansı alətlər vasitəsilə bilik və bacarıqlara yiyələndiklərini yoxlayıb ölçə bilmirik.**

Məsələn, xaricə oxumağa gedən şəxslərin bilik və bacarıqlarını yoxlaya bilirik, ən azından sərhəd xidməti ilə sorğu əsasında yoxlayırıq ki, həmin şəxslər o ölkə ərazisində nə qədər olublar. Əslində Azərbaycanda da distant təhsil tətbiq olunarsa, vaxt məsələsi və digər problemlər aradan qalxar. Koronavirus pandemiyası zamanı distant təhsilin müsbət tərəfi ilə bərabər mənfi tərəfləri də var idi. Ancaq tam tətbiq olunarsa, o problemlər də aradan qalxacaq. İnsanların təhsil alma hüququ məhdudlaşdırılır.

”Təhsil haqqında” Qanunda distant təhsil forması var. İnsanlar qanunu əsas götürərək, gedib xaricdə ali təhsil alırlar, biz də bu diplomu tanımırıq. Məncə, diplomların tanınması üçün yaradılacaq mexanizmdə həmin şəxslərin təhsil aldığı portalı yoxlamalıyıq ki, onlar nə qədər müddətdə orada olublar. Əgər həmin mexanizm tətbiq olunarsa, gənclər distant təhsil almaqdan çəkinməzlər. Çünki distant təhsil əyani təhsil formasıdır və bütün proqram 4 il ərzində başa çatdırılır. Hesab edirəm ki,” Ali təhsil haqqında” qanun qəbul edildikdən sonra bu məsələ də öz həllini tapacaq. Çünki kifayət qədər insan bu problemi yaşayır.

Xaricdə distant təhsil alan şəxslər özəl sektorda işləyirlərsə, onların diplomlarının tanınmasına ehtiyac yoxdur. Onlar əgər təhsillərini Azərbaycanda magistratura pilləsində davam etdirmək və ya dövlət qulluğunda çalışmaq fikrindədirlərsə, o zaman onların diplomlarının tanınmasına ehtiyac var. İnanıram ki, yaxın vaxtlarda distant təhsil almağımız ölkədə keyfiyyətli təhsil xidmətlərinin göstərilməsinə öz müsbət təsirini göstərəcək”.

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

# Keçmiş məcburi köçkünlər üçün nəzərdə tutulan mənzillər necə satılacaq?

**Məlum olduğu kimi, Prezident İlham Əliyev ötən ay “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.**

Həmin Fərmanla Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsində, Qaradağ rayonunun Ümid qəsəbəsində, Binəqədi rayonunun Xocasən qəsəbəsində, Abşeron, Lənkəran və Samux rayonlarında inşa edilmiş çoxmənzilli binalarda, həmçinin Bakı şəhəri Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində və Abşeron rayonunda inşası davam etdirilən çoxmənzilli binalarda yerləşən mənzillərin satış qaydası müəyyən edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məcburi köçkünlər üçün tikilən və istifadəsiz qalan mənzillərin satışını həyata keçirəcək.

Qeyd edək ki, burada Vətən müharibəsindən əvvəl məcburi köçkünlərə verilmiş və hazırda onların yaşadığı mənzillərin satışından söhbət getmir. Bu proses necə həyata keçiriləcək? Ümumiyyətlə, yeni mənzillərin satışa çıxarılması əmlak bazarına necə təsir göstərəcək?



**■ Məsələni hafta.az-a şərh edən əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev bildirib ki, keçmiş məcburi köçkünlər üçün nəzərdə tutulmuş binaların satışa çıxarılması əmlak bazarında qiymətlərin stabilləşməsinə gətirib çıxaracaq. Onun sözlərinə görə, yeni addım aztəminatlı ailələrin bu binalardan mənzil almasını əlçatan edəcək:**

”Belə ki, dövlət sifarişi ilə tikilən binalarda ümumi xərclər az olduğuna, torpaq sahələri dövlət tərəfindən ayrıldığına görə həmin binalarda mənzillərin maya və bazar dəyəri digər mənzillərdən daha ucuzdur. Buna görə həmin mənzillər daha aşağı qiymətə təklif olunacaq. Bakı, Abşeron və digər bölgələrdə belə mənzillərin satışa çıxarılması aztəminatlı ailələrin büdcəsinə uyğun olacaq”. Ekspert vurğulayır ki, proses zamanı təxminən 2500 mənzilin satışa çıxarılması gözlənilir: “Satışdan əldə olunacaq gəlir barəsində konkret fikir bildirmək çətindir. Yəni, mənzilin bir kvadratmetrinin dəyəri, eyni zamanda, ümumi satış sahəsinin neçə min kvadratmetr olacağı açıqlanmayıb. Sadəcə, onu deyə bilərəm ki, ümumi satıdan əldə olunacaq gəlir hesabına həm şəhid ailələrinin, həm də müharibə əlillərinin mənzil şəraitini yaxşılaşdırmaq mümkün olacaq. Hətta satışa çıxarılmayan boş mənzillər də artıq qalacaq”.

> “
> *Keçmiş məcburi köçkünlər üçün nəzərdə tutulmuş binaların satışa çıxarılması əmlak bazarında qiymətlərin stabilləşməsinə gətirib çıxaracaq*

> *Başlıca məqsəd qısa vaxt kəsiyində regionlarda yaşayan belə şəxsləri evlə təmin etməkdir*

**■ Mövzu ilə bağlı hafta.az-a açıqlama verən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimai əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıblı deyib ki, yeni qaydaların təsdiqi şəhid ailələri və müharibə əlillərinin mənzil təminatının yaxşılaşdırılamsı üçün atılan növbəti addımdır.** Başlıca məqsəd qısa vaxt kəsiyində regionlarda yaşayan belə şəxsləri evlə təmin etməkdir: “Bildiririk ki, Prezident İlham Əliyevin 11 aprel 2022-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş Qaydaya əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışını təşkil etmək məqsədilə elektron portal hazırlanır. Portal bir neçə moduldan ibarət olacaq. Mənzil almaq istəyən hüquqi və fiziki şəxslərin satış portalına real vaxt rejimində Vahid Giriş Sistemindən - “ASAN Login” üzərindən giriş imkanı olacaq. Portalda onların qeydiyyatı aparılmaqla, hər biri üçün elektron kabinetlər yaradılacaq, mənzillərin satışı ilə bağlı bildirişlər yerləşdiriləcək. Portalda satılan mənzillərlə bağlı məlumatlar (ünvanı, binanın mərtəbə sayı, mənzilin yerləşdiyi mərtəbə, mənzilin nömrəsi, sahəsi, otaqlarının sayı, təmir vəziyyəti və s.) yerləşdiriləcək. Fiziki və hüquqi şəxslər mənzil satışına dair elanla portal üzərindən məlumatlandırılacaq. Onu da deyək ki, hazırda bu istiqamətdə müvafiq prosedurlar davam etdirilir”.

***✍ Sevinc***

## XƏBƏRİNİZ OLSUN...



■ “Azərbaycanda sığınacaqların sayı kifayət qədər deyil”. Bunu jurnalistlərə açıqlamasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib. Onun sözlərinə görə, lakin bu o demək deyil ki, bölgənin hər yerində sığınacaq olmalıdır.

---

■ Dahi bəstəkar Fikrət Əmirovun nəvəsi Pərviz Xəlilov qəfil vəfat edib. P.Xəlilov dünən səhər Bakıda işə gedərkən dünyasını dəyişib. Onun ürəktutmadan vəfat etdiyi bildirilir. Qeyd edək ki, 1975-ci il təvəllüdlü Pərviz Xəlilov Fikrət Əmirovun qızı Afət Xəlilovanın oğludur.

---

■ Rusiya Prezidenti Vladimir Putin Türkmənistan Prezidenti Sərdar Berdıməhəmmədovu “Dostluq” ordeni ilə təltif edib. Bu barədə məlumatı Kreml yayıb.

---



■ Rusiya Dövlət Dumasının Beynəlxalq məsələlər komitəsinin sədri Leonid Slutski Dumada Rusiya Liberal Demokrat Partiyası fraksiyasının sədri seçilib. Bu barədə məlumatı fraksiyanın mətbuat katibi Aleksandr Dyupin açıqlayıb.

---

■ 2022-ci ilin 3 ayında 7051 nəfər heyvan dişləmələrinə məruz qalıb. Bunu Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Xüsusi Təhlükəli İnfeksiyalar şöbəsinin müdiri Ceyran Cəfərova deyib. O bildirib ki, ötən ilin müvafiq dövründə bu rəqəm 7361 olub:

---

■ İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) 2022-ci ilin aprel ayında icbari tibbi sığorta çərçivəsində TƏBİB-in tabeliyindəki tibb müəssisələrində vətəndaşlara göstərilən tibbi xidmətlərlə bağlı statistik göstəriciləri təqdim edib.

Aprel ayında dövlət tibb müəssisələrinə 849 726 şəxs 1 571 809 dəfə müraciət edib. Vətəndaşlara göstərilən tibbi xidmətlərin sayı isə 3 448 090 olub. Tibbi xidmətlərin 84 %-i ambulator, 16 %-i stasionar şəraitdə göstərilib. Pasiyentlərin 30 %-ni uşaqlar, 70 %-ni böyüklər təşkil edib.

---



■ “Mən Qarabağa ötən ilin yanvarında səfər etdim. Biz bəzi qədim mədəni irs abidələrinin dağıntılarını görmüşük”. Bunu ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik bildirib.

---

■ Narkotiklərin qanunsuz dövriyyəsində ittiham olunan Cavid Babaşovun (Sumqayıtlı) cinayət işi üzrə məhkəmə araşdırması başa çatıb. APA-nın əldə etdiyi xəbərə görə, Sumqayıt Ağır Cinayətlər Məhkəməsində hakim Fəhmin Hümbətovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasan, Cavid Babaşov narkotik satışında təqsirli bilinərək 7 il 6 ay müddətinə azadlıqdan məhrum olunub.

# Tikinti şirkətləri gözləmə mövqeyində

***Azərbaycanda tikinti materialları bazarında qiymətlər kəskin şəkildə artıb. Hətta elə məhsullar var ki, son bir ildə təxminən 50 faizə qədər bahalaşıb. Qeyd edək ki, mövcud qiymət artımı nəticəsində yeni tikililərin maya dəyəri əhəmiyyətli dərəcədə artdığından şirkətlər satış qiymətlərini yenidən nəzərdən keçirirlər. Müşahidələr göstərir ki, ötən illə müqayisədə hazırda ilkin mənzil bazarında qiymətlərin bir kvadratmetr üzrə təxminən 150-200 manat bahalaşması müşahidə edilir. Tikinti materialları bazarında bahalaşmaya səbəb nədir? Azərbaycan tikinti materiallarını daha çox hansı ölkələrdən idxal edir? Tikinti materialları bazarında yerli istehsalın payı nə qədərdir?***



## Aktual

■ **Məsələni hafta.az-a şərh edən "MBA" konsaltinq və qiymətləndirmə şirkətinin baş direktoru, daşınmaz əmlak üzrə ekspert Nüsrət İbrahimov da deyib ki, son bir ildə tikinti materialları bazarında əhəmiyyətli artım var:** "Nəzərə alsaq ki, tikinti materialları tikintinin maya dəyərinin 45 faizini təşkil edir. Aparılmış hesabatlara görə, tikinti materiallarının qiymət artımı yeni inşa olunacaq binaların layihəsindən və tikinti ərazisindən asılı olaraq qiymətlərə 7-14 faiz səviyyəsində təsir göstərir. Hazırda xüsusən də idxal məhsullarında, məsələn, dəmir və taxtada daha çox bahalaşma müşahidə olunur. Təbii ki, bu artım bir neçə faktorlarla əlaqəlidir. Birinci, Azərbaycanda tikinti materiallarının bir qismi Rusiyadan idxal olunurdu. Rusiyada həm yerində qiymət artıb, həm də ümumi daşınma, gömrük xərcləri bahalaşıb. İkincisi, bizdə daxildə də qiymət artımı var və bu artım enerji daşıyıcılarında bahalaşma, nəqliyyatda qiymət artımı, əmək tutumunda qiymət artımı ilə bağlıdır. Yəni, bunlar hamısı son nəticədə maya dəyərinə təsir göstərir. Amma onu deyim ki, son 2 ayda qiymətlərdə müəyyən qədər geri dönmə var. Yəni, bəzi materiallar üzrə qiymətlərin "köpü" alınıb. Təbii ki, qiyməti artan tikinti materiallarının nəticəsində tikintinin maya dəyərində artım müşahidə edilir.

> *Tikinti materiallarının qiymət artımı yeni inşa olunacaq binaların layihəsindən və tikinti ərazisindən asılı olaraq qiymətlərə 7-14 faiz səviyyəsində təsir göstərir*

Son 3 aydır ki, biz artıq bu artımı müşahidə edirik. Sözsüz ki, maya dəyərində artım varsa, satış qiymətlərində də artım olacaq. Bu isə satışda müəyyən problemlər yaradır. Çünki bundan əvvəl alıcılar aşağı qiymətlə almağa öyrəşmişdilər, indi qiymət artımı var və müəyyən qədər bazardan çəkilmələr var. Təbii ki, satışda problemlər varsa, tikinti şirkətləri öz növbəti layihələrinə bir qədər həvəssiz yanaşırlar. Bu mənada tikintinin həcmində azalmalar qaçılmazdır".

### Qiymət artımı bütün materiallarda özünü göstərir

**Onun sözlərinə görə, ötən ilə nisbətən tikinti materialları bazarında 19,6 faiz qiymət artımı müşahidə edilir: "Qiymət artımı bütün tikinti materiallarında özünü göstərir.**

Yerli istehsal olan mişar daşı 9.1 faiz, sement 9 faiz, taxta materialları 27 faiz, dikt 54.8 faiz, armatur 20.8 faiz bahalaşıb. Digər məhsullarda da bahalaşma müşahidə edilir. Bundan əlavə, dəmir məmulatlarının qiyməti 34.6 faiz, dam örtüklərinin qiyməti isə 19.2 faiz artıb. Tikinti materiallarının qiymətinin artması satış qiymətlərinə 7-11 faiz aralığında təsir edəcək. Təbii ki, bahalaşma alqı-satqıların sayının azalmasına gətirib çıxaracaq. Həm istehsal məhsullarında, həm istehsal məhsullarında və digər sahələrdə qiymətlərin artması insanların xərclərini tənzimləməsinə gətirib çıxaracaq".

Ekspert əlavə edib ki, yeni tikililərdə qiymət artımı tikinti bazarındakı mövcud vəziyyətlə əlaqədardır: "Hazırda əsasən, ilkin mənzil bazarında qiymət artımı müşahidə edirik. Amma ola bilər ki, uzaq prespektivdə təkrar mənzil bazarında da qiymət artımını müşahidə edə biləк. O cümlədən biz qiymət artımını həm də qeyri-yaşayış sahələrində müşahidə edəcəyik". N.İbrahimov habelə vurğulayıb ki, Azərbaycan tikinti materiallarını daha çox Rusiya və Ukraynadan idxal edir:

"Hər iki ölkədəki vəziyyət hamıya məlumdur. Ukraynadan artıq ümumiyyətlə, məhsul idxal etmək mümkün deyil. Bəzi materialları isə Türkiyə və İrandan idxal edirik. Məsələn, hazırda Türkiyədən idxalda artım var. Yerli istehsalla bağlı vəziyyət isə zaman-zaman dəyişir. Məsələn, yerli istehsalın bazarda payı əvvəllər 15-20 faiz təşkil edirdi, amma bu gün təxminən 50 faizə yaxınlaşır. Yəni, zamanla bu pay artmağa başlayıb".

### Yeni layihələrin sayı azalacaq

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev deyib ki, Azərbaycan tikinti materialları sahəsində hələlik idxaldan asılıdır. Onun sözlərinə görə, il yarımdan artıqdır ki, bütün tikinti materiallarının qiymətlərində artım var:**

"Pandemiya səngiyəndən sonra hətta iki dəfəyə qədər qiymət artımı müşahidə olunub. Lakin son zamanlardakı artımlar Rusiya-Ukrayna müharibəsi ilə əlaqəlidir. Çünki Azərbaycana tikinti materiallarının böyük hissəsi Rusiyadan və Ukraynadan gətirilirdi. Xüsusən Ukraynadan gətirilən dəmir-metal konstruksiyalarından daha çox istifadə olunur. Hazırda tikinti materiallarının idxalında ciddi problemlər var. Bu gün Rusiyada çox dərin iqtisadi böhran yaşanır. Sanksiyalara görə rublun qiyməti kəskin düşüb. Ona görə də əksər istehsal müəssisələri ya tikinti materiallarını satmamalı, ya da qiymətləri artırmalıdır ki, daha böyük inflyasiyaya məruz qalmasınlar. Bu səbəbdən ölkəmizə gətirilən tikinti materiallarının qiymətlərində artım olması qaçılmazdır. Ölkəmizdə bəzi istehsal müəssisələri xammalın böyük hissəsini xarici ölkələrdən alırlar. Bunun özü də qiymət artımına gətirib çıxarır.

Son dövrlərdə kommunal xərclərin artması ilə həmin istehsal müəssisələrində qiymət artımı baş verdi".

Ekspert deyib ki, tikinti materiallarında bahalaşma olduğuna görə əmlak bazarında da qiymət artımı müşahidə edilir: "Köhnə binalarda yox, hazırda tikilməkdə olan və fərdi həyət evlərində bahalaşmanı görə bilərik. Amma tikilməkdə olan binaların sayı barmaqla sayılacaq qədərdir. Bugünkü mövcud vəziyyətdə bina inşa etmək sahibkara sərf etmir.

Çünki paytaxtda tikinti üçün yararlı torpaq sahələri yoxdur, yaxud varsa, fantastik dərəcədə bahadır. Digər tərəfdən, köhnə binaları söküb yerində yenilərinin inşasında da bir çox problemlər var. Tikinti əmsalına görə, daha çoxmərtəbəli bina tikə bilmirlər, eyni zamanda, sakinləri mənzillə təmin etməkdə problemlər var. Buna görə də tikinti şirkətləri hələ gözləmə mövqeyindədirlər".

Onun sözlərinə görə, material gəlişində problem yaranarsa və Azərbaycan bu materialları alternativ ölkədən alarsa, qiymətlərdə bir neçə dəfə artım müşahidə oluna bilər: "Çünki alternativ ölkələr Asiya ölkələridir və oradan bura məsafə, digər xərclər hesablandıqda materialın Azərbaycana çatma qiyməti maya dəyərindən 2-3 dəfə baha başa gəlir. Bu baxımdan tikinti materiallarının bahalaşması Azərbaycanda əmlak bazarına mənfi təsir göstərəcək. Hətta bir müddət tikinti şirkətləri, fərdi həyət evlərini tikən şəxslər də gözləmə mövqeyində olacaqlar ki, bazarda stabillik yaransın".

### Rusiyadakı soydaşlarımız Azərbaycanda əmlaklarını satışa çıxarırlar

**Ekspertin sözlərinə görə, Qarabağda yenidənqurma işlərinin aparılması üçün Azərbaycanın daha çox tikinti materiallarına ehtiyacı var:**

"Biz nəzərə almalıyıq ki, Azərbaycan 28 il düşmən işğalında olan torpaqlarını 2020-ci ildə azad edib və həmin torpaqlar Azərbaycan ərazisinn 20 faizdən artığını təşkil edir. Həmin ərazilərdə isə yaşayış, infrastruktur yenidən qurulmalıdır. Bu səbəbdən Azərbaycanın tikinti materiallarına daha çox ehtiyacı var. Çünki həmin ərazilər yenidən tikilməli, qurulmalıdır. Bu tikintilər başladıqdan sonra isə qiymət artımı tikintinin maya dəyərini artırmaqla bərabər, ölkənin büdcəsinə də mənfi təsir göstərəcək".

> *Rusiyada yaşayan soydaşlarımız artıq buradakı əmlaklarını satışa çıxarırlar ki, orada olan bizneslərini xilas edə bilsinlər*

E.Fərzəliyev Rusiya-Ukrayna müharibəsinin Azərbaycanda daşınmaz əmlak bazarına mənfi təsirlərindən də danışıb: "Müharibənin Azərbaycanın daşınmaz əmlak bazarına hər tərəfdən mənfi təsiri var. Bir tərəfdən, tikinti materiallarının qiyməti artır, digər tərəfdən, Rusiyada yaşayan soydaşlarımız artıq buradakı əmlaklarını satışa çıxarırlar ki, orada olan bizneslərini xilas edə bilsinlər. Eyni vaxtda 10 minlərlə əmlak satışa çıxarılır.

Ona görə də müəyyən müddət üçün qiymətlərdə bir qədər azalmanı müşahidə edəcəyik. Orada iki milyona qədər soydaşımız yaşayır. Onlardan əmək qabiliyyəti olan, xüsusən də kişilərin 80-90 faizi hansısa kiçik, böyük, yaxud orta bizneslərdə çalışır. Oradakı mövcud vəziyyət Rusiya iqtisadiyyatına mənfi təsir göstərdiyi kimi, soydaşlarımızın da bizneslərini çökdürür. Yəni bu hal müvəqqətidir, ola bilər 20 gün, 1 ay və s. davam etsin. Daha sonra əmlak bazarında yenidən qiymət artımını görəcəyik".

Yerli istehsala gəlincə, mütəxəssis hesab edir ki, yaxın gələcəkdə artıq Azərbaycan özünün tikinti materiallarının istehsalına başlaya biləcək: "Təkcə istehsal etməyəcək, həmçinin digər ölkələrə də ixrac edə biləcək. Biz azad olunmuş ərazilərimizə baxsaq, görərik ki, orada 140-a qədər təbii sərvət mövcuddur - qızıl, gümüş, filiz və s. Həmin sərvətlərin mövcud olduğu mədənlərin istifadəsinə başlanılsa, artıq gələcəkdə ölkəmiz bu sahədə digər ölkələrdən asılılığın bir çoxundan qurtula biləcək".

✍ ***Sevinc***

# "Manata təhlükə yoxdur"

***Bu gün qlobal aləmdə müşahidə olunan geosiyasi gərginlik dünya iqtisadiyyatına da təsirsiz ötüşmür. Hazırda demək olar ki, dünyada qiymətlər sürətlə bahalaşır, bütün ölkələrdə inflyasiya ən yüksək həddə çatıb. Siyasi gərginlik fonunda neftin bahalaşması, avronun ucuzlaşması, rublun yenidən dəyər qazanması, dolların isə valyuta bazarında dominantlıq etməsi müşahidə olunur. Mövzu ətrafında həmsöhbətimiz iqtisadçı-ekspert Xalid Kərimlidir.***



**Xalid Kərimli,**
iqtisadçı-ekspert

## Məzənnə

***- Xalid müəllim, bu gün dünya iqtisadiyyatında baş verən proseslər yaxın və orta müddətli perspektivlər üçün nə vəd edir?***

- Ümumiyyətlə, hazırda dünya iqtisadiyyatında baş verən prosesləri qiymətləndirirlər, amma hər şey çox sürətlə dəyişir. Hətta ressesiya riskinin olduğunu söyləyən analitiklər də var. Ancaq ümumi konsensus ondan ibarətdir ki, baş verən inflyasiya prosesləri, Avropada müharibə iqtisadi artımı ləngidəcək, lakin dünya böhrana girməyəcək. Yəni, dünya Mərkəzi Banklarının da verdiyi proqnozlar ondan ibarətdir ki, onlar inflyasiyanı ressesiya olmadan kontrol altına sala biləcəklər. Ümumi şəkildə müsbət meyllər odur ki, iqtisadi artım davam edəcək, ancaq ləngimələr qaçılmazdır.

***- Son bir neçə gündur ki, dünya bazarında Azərbaycan nefti yenidən bahalaşmağa başlayıb. Sizcə, bunun səbəbi nədir və bahalaşma davam edəcəkmi?***

- Neftin qiyməti hazırda 100-120 dollar arasında "oynayır". Bu gün neftin qiymətinə təsir edən əsas amil ondan ibarətdir ki, Rusiyaya tətbiq ediləcək sanksiyalar, Rusiya neftindən imtinanın dünya bazarında neftə olan tələbatı artıracağına dair gözləntilərdir. Yəni, Rusiya neftinin idxal edilməsinə qoyulan məhdudiyyət ona gətirib çıxara bilər ki, şimal qonşumuzda hasilat azala bilər və Avropa ölkələri alternativ mənbələr axtara bilərlər. Bu da bazarda ümumi gərginliyi daha da artıracaq.



***- Neftin bahalaşması fonunda Azərbaycanın gəlirləri artır, amma bununla paralel ölkədə inflyasiya artıq ikirəqəmli həddədir. Makroiqtisadi sabitliyin təmin olunması üçünsə aşağı inflyasiya zəruridir. İndiki şəraitdə inflyasiyanı birrəqəmli həddə endirmək mümkündürmü? Ümumiyyətlə, hökumət inflyasiyanı aşağı salmaq üçün hansı alətlərdən istifadə etməlidir?***

- Neftin qiymətinin bahalaşmasının ölkəyə təsiri müsbətdir. Neft-qaz qiymətlərinin yüksəlməsi ona gətirib çıxarır ki, ölkədə makroiqtisadi sabitlik təmin edilir, manatın məzənnəsinə risklər, təsirlər olmur. Hətta son zamanlar görürsünüz ki, digər valyutalara nisbətdə manatın bahalaşması meylləri hiss olunur. Bununla yanaşı, ölkədə inflyasiya artır. İnflyasiyanın artma səbəblərinin kökündə ciddi sürətdə dünya bazarındakı qiymətlərin artması durur.

> *Dolların bahalaşmaqda davam etməsi manat üçün ciddi təzyiqlər formalaşdıracaq*

Yəni, inflyasiya daha çox idxal inflyasiyası şəklində özünü göstərir. Təbii ki, dövlət müxtəlif addımlarla çalışır ki, inflyasiyanı nəzarətdə saxlasın. Məsələn, Mərkəzi Bank faiz dərəcələrini sərtləşdirir, tədricən artıq pul kütləsini dövriyyədən çıxarmağa çalışır. Eyni zamanda, hökumət süni qiymət formalaşdıran inhisarçılar üzərində nəzarəti artırır, bəzi ərzaq məhsullarını vergidən, rüsumdan azad edir, ərzaq istehsalçıları və idxalçılarına güzəştli kreditlər verməyə çalışır və.s. Yəni, bu alətlərdən istifadə edərək inflyasiyanı nəzarət altına salmağa çalışır. Ancaq inflyasiyanın əsas aparıcı hərəkətverici qüvvəsi xaricdə formalaşdığına, qlobal problem kimi ölkəyə idxal olunduğuna görə, burada hökumətin atacağı addımların çərçivəsi məhduddur. Çünki bu məsələ daha çox qlobal amillərin təsirləri altında formalaşır. Amma hökumət qiymətlərin daha da bahalaşmaması üçün əlində nə imkanlar var, ondan istifadə etməyə çalışır.

***- Hazırda dollar dünya birjalarında digər valyutalara nisbətdə qüvvətlənməkdə davam edir, avro isə ucuzlaşır. Avronun ucuzlaşmasına səbəb nədir və dolların bahalaşması hansı ölkələrin valyutaları üçün təhdid sayıla bilər? Konkret olaraq Azərbaycan manatı üçün təhlükə varmı?***

- Bu gün dolların bahalaşmasına əsas səbəb Amerika Mərkəzi Bankı antiinflyasiya tədbirləri çərçivəsində intensiv sürətdə sərt pul siyasəti həyata keçirir. Avropa Mərkəzi Bankı isə proseslərdə bir qədər ləngiyir. Çünki Avropada müharibə gedir, Avropada ölkələrin spektri fərqlidir, 20-25 ölkə qərar verməlidir. Amerika artıq mart ayından sərt pul siyasətinə başlayıb. Avropada isə hələ üçüncü rübdən gözləntilər var ki, sərt pul siyasətinə başlanılsın. Təbii ki, dolların bahalaşması inkişaf etməkdə olan ölkələr üçün ciddi təhdiddir və onların valyutasına təzyiq formalaşdırır. Azərbaycan manatı dollara fiksə edildiyinə görə, dolların bahalaşması nəticə etibarilə manatın bahalaşmasına gətirib çıxarır. Bu da bizim üçün arzuolunan deyil. Düzdür, inflyasiyanın nəzarət altına salınması üçün yaxşıdır, amma ümumi ortamüddətli dövr üçün, ölkə iqtisadiyyatı üçün arzuolunan deyil.

Çünki manatın avroya, funta, lirəyə qarşı bahalaşması ölkənin ixrac imkanlarını çətinləşdirir. Bir sözlə, dolların bahalaşması, faiz dərəcəsinin artması inkişaf etməkdə olan ölkələrdə borc krizisi, ödəmə problemi yarada bilər ki, bu da arzuolunan deyil. Azərbaycan manatına gəldikdə isə, manat üçün hazırkı məqamda, yəni, 2022-ci ildə təhlükə yoxdur. Amma ümumi şəkildə dolların bahalaşmaqda davam etməsi ölkə üçün, manat üçün ciddi təzyiqlər formalaşdıracaq. Yəni, hökumət indiki dövrdə heç bir addım atmasın, lakin bu o demək deyil ki, vəziyyət həmişə belə qalacaq.

***- Rusiyaya qarşı məlum sanksiyalardan sonra rubl əhəmiyyətli dərəcədə dəyər itirmişdı. Amma son vaxtlar rublun ötən aylarla müqayisədə dəyər qazandığını müşahidə edirik. Sizcə, rublun bahalaşması müvəqqəti xarakter daşıyır, yoxsa proses davamlı olacaq? Bu məsələnin Azərbaycan iqtisadiyyatına hansı təsirləri gözlənilir?***

- Rublun əvvəlcə dəyər itirməsi və sonradan bahalaşması təbii ki, Rusiya Mərkəzi Bankının və hökümətinin atdığı addımlarla bağlıdır. Rusiya demək olar ki, rublun formalaşmasında ciddi sürətdə kapital bazarlarında məhdudiyyətlər tətbiq etdi. Yəni, valyuta alışına, həcminə, valyuta alışı zamanı komissiya və s. tətbiq etməklə rublu yenidən ayağa qaldırdı. Rusiya ixracının müharibə nəticəsində bahalaşması ona gətirib çıxarır ki, Rusiyanın ixracı artır, idxal məhdudlaşır, insanların dünya ilə əlaqələri azaldığına görə də xarici valyutalara tələb aşağı düşür. Demək olar ki, Rusiya məhdudlaşdırıcı addımlarla rublu bahalaşdırdı. Bu proses davamlı xarakter daşıya biməz. Rusiya Mərkəzi Bankı da istəmir ki, rubl ciddi sürətdə bahalaşmaqda davam etsin. Çünki bu Rusiyanın büdcə öhdəliklərinin icrasına problemlər yarada bilər. Ona görə də Rusiya imkan verməyəcək ki, milli valyutası çox bahalaşsın. Yenə də ən son qərarı Rusiya hökuməti verəcək və onların atacağı addımlardan çox şey asılıdır. Ancaq rus rublunun bahalaşması Azərbaycan üçün xeyirlidir. Çünki Rusiya alıcısının imkanları artır. Bizim də qeyri-neft ixracının əsas istiqaməti Rusiyadır.

✍ ***Sevinc***

# Qlobal taxıl böhranı

***Bu gün dünyanın "1 nömrəli" narahatlığı buğda qıtlığının yarana biləcəyi ilə bağlıdır. Rusiyanın Ukraynaya qarşı müharibəsi son üç ay ərzində strateji ərzaq növü olan çörəyin sürətlə bahalaşmasına gətirib çıxarıb. Niyə? Ona görə ki, dünyanın ən böyük buğda istehsalçılarından olan Rusiya və Ukrayna məlum savaşa görə xarici bazarlara məhsul göndərmir və ya göndərə bilmir. Hələ bu azmış kimi, hay-küyə düşən digər buğda istehsalçıları da ixracı məhdudlaşdıraraq öz qara günlərini fikirləşməyə başlayıblar. Məsələn, Rusiya Qərbə dərs olsun deyə, xaricə buğda satışını dayandırandan qısa vaxt sonra eyni addımı Qazaxıstan da atdı. Bütün idxalçı ölkələr Hindistana üz tutdular. Bir neçə gün öncə onlar ixracı məhdudlaşdırmaq qərarına gəldilər. Bu isə beynəlxalq miqyasda təşvişi daha da artırıb. BMT-nin hesabatına görə, buğda çatışmazlığı 1 milyarddan artıq insanı kəskin aclıqla üzləşdirə bilər.***



## Araşdırma

### Problemlər və çıxış yolu

**Nəzərə alaq ki, Azərbaycan buğdanın bir hissəsini xaricdən, xüsusilə də Rusiya, Ukrayna və Qazaxıstandan idxal edir. Əgər Rusiya və Qazaxıstan satmayacaqsa, Ukrayna da müharibədən dolayısı ixracla bağlı öhdəliklərini məcburən yerinə yetirə bilmirsə, o zaman taxıl idxalını mütləq şaxələndirməliyik.**

Bildiyimizə görə, rəsmi Bakı bu müstəvidə Hindistanla danışıqlar aparırdı. Son günlər Hindistan buğda satmaq fikrindən vaz keçdiyindən, heç ağlımıza gəlməyən ölkələrə üz tuta bilərik. Ən iri ixracatçıların qərarı məlum olduğundan, böyük buğda alıcıları yeni bazarlar arayışındadır. Onlar isə o qədər də çox deyil. İndiki şərtlər daxilində bir çox inkişaf etmiş buğda istehsalçıları yığdıqları məhsulu hazır un və un məhsullarına çevirərək satmağa üstünlük verirlər. Məsələn, Fransa dünyanın ən böyük buğda istehsalçılarından olsa da, bu ölkə buğdanı xammal şəklində deyil, vermişel, makaron və başqa onlarca adda hazır məhsul olaraq xarici bazara çıxarmağa üstünlük verir. Bununla da həm ölkədə əlavə iş yerləri yaranır, həm də emal olunmuş məhsulu dəfələrlə baha satmaqla yaxşı qazanır.

Bir məsələni də yadda saxlamaq lazımdır ki, Ukraynada müharibə başa çatsa belə, ən azı, 35 faiz və ya 9 milyon ton buğda kəsrinin yaranması qaçılmazdır. Müharibə ölkənin kənd təsərrüfatına olduqca ağır zərbələr vurub.

Yuxarıda qeyd etdik ki, dünyada ağlımıza gətirmədiyimiz fərqli, amma satış həcmi bir az məhdud olan buğda bazarları var. Həmin bazarların satış həcmi məhdud olsa da, cəmi 10 milyonluq Azərbaycanın idxal tələbatına yararlı ola bilər. Ümumiyyətlə, dünyanın hansı ölkələri buğda ixrac edir və ya etmək imkanına sahibdir? Bu bazarlar haqqında məlumatlara ötəri nəzər salaq:

### Dünyanın taxıl anbarları

***1. 2021-ci il statistikasına görə, dünyada ən çox buğda istehsal edən ölkə Çindir. Bu ölkədə 24 milyon 269 min hektar ərazidə taxıl biçinləri gerçəkləşdirilib və nəticədə 131 milyon 448 min tona yaxın buğda yığılıb. Bu da adambaşına 94,3 kiloqramdan bir az artıq deməkdir. Məhsuldarlıq hər hektara 5416 kiloqramdır.***

*2. Hindistanda 29 milyon 580 min hektarda səpin işləri həyata keçirilib və 99 milyon 700 min ton buğda hasil olunub. 2021-ci ildə Hindistanda adambaşına 74,6 kiloqram buğda yığılıb. Hindistanda hər hektara görə məhsuldarlıq 3370 kiloqram olub.*

*3. Buğda istehsalında dünya üçüncüsü Rusiyadır. Bu ölkədə 26 milyon 472 min hektardan artıq sahədə buğda səpilib və 72 milyon 136 min ton məhsul yığılıb. Hər hektara görə məhsuldarlıq 2725 kiloqram olan Rusiyada adambaşına 491 kiloqramdan çox buğda düşür.*

*Bu yerdə haşiyəyə çıxaraq qeyd etmək istərdik ki, Rusiya buğdasının ən böyük alıcısı qardaş Türkiyədir. Ötən il Türkiyə Rusiyadan 1,8 milyard dollarlıq məhsul idxal edib. Rus buğdasının alıcıları arasında ikinci iri müştəri Misirdir ki, onlar 1,5 milyard dollarlıq buğda alıblar.*

*Azərbaycan Rusiya buğdasının üçüncü iri müştərisidir. Ötən il respublikamız Rusiyadan 292 milyon dollarlıq buğda alıb. Rusiya buğdasının ilk beşlikdə olan sonrakı iki müştərisi isə Nigeriya (253 milyon dollar) və özü xaricə məhsul satsa da, Qazaxıstandır (213 milyon dollar).*

*4. ABŞ buğda istehsalına görə dünyada dördüncü yeri tutur. Bu ölkədə 16 milyon 28 min hektarda buğda səpilib və 51 milyon 287 min tona yaxın məhsul toplanıb. ABŞ-da hər hektara görə məhsuldarlıq 3200 kiloqram olub, adambaşına 156,5 kiloqram buğda düşür.*

*5. Dünyada beşinci iri buğda istehsalçısı olan Fransada 2021-ci ildə 5 milyon 232 min hektar ərazidə buğda səpilib və 35,8 milyon tona yaxın məhsul götürülüb.*

*Adambaşı bölgüylə 532 kiloqram buğda istehsal edən Fransada hər hektarda məhsuldarlıq 6843 kiloqramdır. Məhz məhsuldarlıq göstəricisinə görə Fransa dünyada birinci yerdədir.*

*6. Dünyanın altıncı iri buğda istehsalçısı olan Kanadada ötən il 9 milyon 881 min hektar sahədə buğda səpilib və 31 milyon 770 min tona yaxın məhsul yığılıb. Bu ölkədə hər hektarda məhsuldarlıq 3215 kiloqram olsa da, ölkə əhalisinin sayı az olduğundan, adambaşına düşən məhsulun çəkisinə görə birinci pillədədir - 853,7 kiloqram.*

*7. Yeddinci iri buğda istehsalçısı Pakistandır. Bu ölkədə 8 milyon 797 min hektarda buğda səpilib və mövsümün sonunda 25 milyon 76 min ton məhsul yığılıb. Adambaşına 124 kiloqramdan çox məhsul yığılan ölkədə hər hektara görə məhsuldarlıq 2850 kiloqramdan çoxdur.*

*8. Dünyanın səkkizinci böyük taxıl istehsalçısı Ukraynadır. Bu ölkədə ötən il 6 milyon 620 min hektarda buğda səpilib və 24 milyon 653 min ton məhsul yığılıb. Hər hektarda məhsuldarlıq 3724 kiloqram olan ölkədə adambaşına 583,3 kiloqram məhsul düşür.*

*9. Doqquzuncu iri istehsalçı olan Avstraliyada 10 milyon 919 min hektardan çox sahədə buğda səpilib və mövsümün sonunda 20 milyon 941 min tondan artıq məhsul toplanılıb. Bu ölkədə məhsuldarlığın həcmi hər hektara görə 1918 kiloqram olub, adambaşına 836 kiloqram buğda düşür.*

*10. İlk onluğu Almaniya tamamlayır. Bu ölkədə 2021-ci ildə 3 milyon 36 min hektar sahədə buğda səpilib və əvəzində 20 milyon 264 min ton məhsul yığılıb. Hər hektarda məhsuldarlıq 6674 kiloqram olan Almaniyada adambaşına 245 kiloqram buğda düşür.*

*11. Qardaş ölkə Türkiyə dünyanın 11-ci iri buğda istehsalçısıdır. Ötən il 7 milyon 289 min hektar ərazisində buğda səpilən qardaş ölkədə tam 20 milyon ton məhsul yığılıb. Adambaşına 248 kiloqram buğda yığılan Türkiyədə hər hektarda məhsuldarlıq 2744 kiloqramdır.*

Bu yerdə qeyd edək ki, Türkiyədə ən çox buğda 2013-cü ildə yığılıb - 22,1 milyon ton. Yeni əkin mövsümündə isə qardaş ölkənin buğda əkinlərini 3 milyon hektaradək artırmaq niyyəti var.

### Gizli bazarlar və ya çıxış yolu

**Dünyanın ən böyük buğda istehsalçılarının siyahısında Türkiyədən sonrakı pillələri Argentina 18,4 milyon ton, adambaşına 401,7 kiloqram, Qazaxıstan 14,8 milyon ton, adambaşına 772 kiloqram, Böyük Britaniya 14,6 milyon ton, adambaşına 221 kiloqram, İran 14 milyon ton, adambaşına 164,2 kiloqram və sair tutur.**

Siyahı bununla bitmir, dünyanın beş qitəsində böyük buğda istehsalçıları mövcuddur. Amma onların öz məhsullarını xarici bazara çıxarmaq və ya daha çox çıxarmaq imkanları varmı? Məsələn, hər il Polşa 13 milyon ton, Rumıniya 8 milyon ton, İtaliya 8 milyon ton, Özbəkistan 8 milyon ton, Braziliya 7 milyon ton və sair buğda istehsal edir. Avropanın bir çox ölkələrində - Çexiya, Bolqarıstan, Macarıstan, Danimarka və digər bir neçə ölkədə illik buğda yığımı 5-6 milyon ton civarındadır. Bu da həmin ölkələrin tələbatını ödəyir və müəyyən qədəri xarici bazara çıxarılır. Bütövlükdə Avropa İttifaqı ölkələri ildə 176 milyon ton buğda istehsal eləməkdədir.

Qeyd edək ki, Azərbaycan uzaq Kanada və ya Argentina bazarına çıxış axtarmaqdansa, ən azı Bolqarıstana, Macarıstan, Çexiya, Serbiya və digər Şərqi Avropa ölkələrinə üz tuta bilər. Məsələn, Bolqarıstanın əhalisi Azərbaycan əhalisinin təxminən 60 faizi qədər olmasına baxmayaraq, bu ölkədə Azərbaycandakından iki dəfə çox buğda istehsal edilir. Deməli, bolqar bazarında artıq buğda var. Düzdür, onlar əlavə məhsullarını üzv olduqları Avropa İttifaqı bazarına çıxara bilərlər. Amma hazırda bu ölkələr təbii qaz ticarətində böyük ölçüdə Azərbaycana bağlıdırlar. Güman etmək olar ki, rəsmi Bakı Şərqi Avropa ölkələri ilə daha asan dil tapa bilər. Bunu tez etmək lazımdır ki, daha böyük idxalçılar bizi qabaqlamasınlar.

✍ Vüsal Tağıbəyli

# Çap mediasına növbəti dəstək

**Mayın 13-də Azərbaycan Respublikası Baş nazirinin imzaladığı qərara əsasən, Azərbaycanda kütləvi informasiya məhsullarının, kitabların və dərslik komponentlərinin, həmçinin həmin məhsulların istehsalı və nəşri ilə bağlı kağızın idxalı və satışı Əlavə dəyər vergisindən (ƏDV) azad edilib.**



## Media

Bu qərar çap mediası məhsullarının maya dəyərinə və onların istehsal xərclərinə nə dərəcədə təsir edəcək və alıcılara hansı üstünlükləri yaradacaq?

■ **İqtisadçı Natiq Cəfərli hafta.az-a bildirib ki, gözlənilən qərarın kitab nəşri, media sahəsinə, eləcə də alıcılara müsbət təsirləri olacaq.** Onun sözlərinə görə, bundan sonra ən azı ölkəyə gətirilən və yaxud ölkədə çap olunan kitab məhsullarının qiymətində artım olmayacaq. İqtisadçı hesab edir ki, burada qiymətlərin aşağı düşməsi ehtimalı da var.

"Rəqabətlilik mühiti genişlənərsə qiymətlərin də aşağı düşməsinin şahidi ola bilərik. Çünki 18 faiz ƏDV-nin tutulmamasından kifayət qədər ciddi rəqəm alınır. Bu, 1 kitabda 1 manat 80 qəpiklik güzəşt deməkdir. İndiki ehtimallara görə, ola bilər ki, 10 manata satılan kitablar təqribən 8 manat 50 qəpiyə satılsın. Bu həm də xammalın özünün qiymətinin qalxıb-qalxmamasından asılı olacaq". N.Cəfərli ümumən dünyada kağızın özünün qiymətinin qalxmasına diqqət çəkərək, hesab edir ki, Azərbaycanda kağız məhsullarının idxal və satışına görə 18 faiz əlavə dəyər vergisindən azad edilmə ən azından növbəti qiymətartma dalğasını azalda bilər.

"Ola bilər ki, Azərbaycanda bundan sonra çap məhsullarının qiyməti artmasın. Bu baxımdan pozitiv, çoxdan gözlənilən bir qərardır. Ümumilikdə bu sahədə fəaliyyət göstərən sahibkarlara dəstək olacaq və əhali üçün də müsbət təsirini göstərəcək".

■ **Nazirlər Kabinetinin müvafiq qərarı ilə Azərbaycanda kütləvi informasiya məhsullarının, kitabların və dərslik komponentlərinin, həmçinin həmin məhsulların istehsalı və nəşri ilə bağlı kağızın idxalı və satışı Əlavə dəyər vergisindən azad edilməsi ölkəmizdə çap mediasına dəstəyin növbəti nümunəsidir. Bu fikirləri hafta.az-a "Həftə içi" qəzetinin baş redaktoru Sevinc Seyidova deyib.**

Onun sözlərinə görə, belə bir qərarın qəbul edilməsi ilə bağlı uzun müddətdir ki, müxtəlif səviyyələrdə müzakirələr gedirdi və təkliflər də verilmişdi. "İndiki məqamda dünyada kağız məhsullarının artan qiymətləri fonunda ƏDV-nin ləğvi özlüyündə Azərbaycanda çap mediasını gözlənilən çətinliklərdən bir qədər sığortalamış olur. Belə ki, bundan sonra kitab, qəzet, jurnal və onların istehsalı ilə bağlı kağız məhsullarının idxal və satışına görə 18 faiz ƏDV tutulmayacaq", - S.Seyidova bildirib.

Baş redaktorun sözlərinə görə, qərarın qəbulunda Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin də səyləri yüksək qiymətləndirilməlidir. Belə ki, müvafiq qərara qədər istər media təmsilçiləri, istərsə də nəşriyyat nümayəndələri ilə keçirilən görüşlərdə ƏDV-nin ləğvi məsələsi də qaldırılıb. MEDİA müvafiq qurumlar qarşısında bu məsələnin müsbət həlli üçün məsələni daim gündəmə gətirib. "Təbii ki, ƏDV-nin ləğvi ilə bağlı qərar çap mediasına növbəti iqtisadi dəstəkdir", - S.Seyidova bildirib.

> "
> *Ola bilər ki, Azərbaycanda bundan sonra çap məhsullarının qiyməti artmasın*
>
> *ƏDV-nin ləğvi ilə bağlı qərar çap mediasına növbəti iqtisadi dəstəkdir*
>
> *Bu qərar təkcə dövlət nəşriyyatlarının yox, həm də özəl nəşriyyatların fəaliyyətində öz təsirini göstərəcək*

■ **"Kitab, qəzet, jurnal və onların istehsalı ilə bağlı kağız məhsullarının idxal və satışına görə 18 faiz ƏDV-nin ləğvi ölkəmizdə çap texnologiyası üzərində qurulmuş bütün sənayenin inkişafında yeni bir mərhələ aça bilər". Bunu hafta.az-a "Bakı Xəbər"qəzetinin baş redaktoru Aydın Quliyev bildirib.**

Baş redaktorun sözlərinə görə, burada söhbət həm qəzetlərin, jurnal redaksiyalarının vəziyyətindən, kitabların çap olunmasından, həm də dərsliklərin istehsalında yeni şəraitin yaranmasından gedir.

A.Quliyevin bildirib ki, bu məsələyə iki cür yanaşıla bilər. Birinci məqam odur ki, ölkəyə idxal olunan çap məhsullarının idxal xərclərinin enməsi nəticəsində onların qiymətlərinin aşağıya doğru dəyişmə ehtimalı artır. Hansı ki, hazır jurnalların ölkəyə gətirilməsi və onun satış qiymətləri xeyli yaxşılaşa bilər. Bunlar öz növbəsində Azərbaycan cəmiyyətinin çox geniş bir çərçivədə marağında olan məsələlərdir. İkinci məsələ isə odur ki, ölkəyə ixrac olunacaq rulon, vərəqə formasında çap kağızının dəyər vergisindən azad olunması, ölkənin daxilində çap istehsal texnologiyasının özünün xərclərinin xeyli dərəcədə aşağı düşməsinə təsir göstərə bilər.

"Ona görə ki, ölkədə qəzetlərin, kitabların və dərslik komplektlərinin istehsalında çox mühüm problemlərdən biri idxal olunan kağızın qiyməti ilə bağlı idi. Çünki həm dərsliklər, həm qəzet, həm də jurnallar birbaşa bu idxal məhsulunun üzərində dayanırdı. Aydın məsələdir ki, kağızın ölkəyə idxalının özünün baha olması və ƏDV nəticəsində onun qiymətinin qalxması son nəticədə məhsulların özünün qiymətinin qalxmasına mənfi təsir göstərir və bahalaşmasını şərtləndirirdi. Əgər həmin qərar əsasında ölkəyə idxal olunan kağızın qiymətində bir dəyişiklik baş verəcəksə, daha doğrusu 18 faiz əlavə dəyər vergisindən azad olunacaqsa, bu özünü son nəticədə həm qəzetlərin istehsal xərclərində göstərməlidir, həm də jurnalların və kitabların nəşr olunmasında". A.Quliyev hesab edir ki, çox məsələlər nəşriyyatların bu qərardan necə nəticə çıxaracaqlarından da asılı olacaq.

"Əslində, bu qərar təkcə dövlət nəşriyyatlarının yox, həm də özəl nəşriyyatların fəaliyyətində öz təsirini göstərəcək. Ona görə ki, idxal olunan məhsulların ƏDV-dən azad olunması həm dövlət nəşriyyatlarının, həm də özəl nəşriyyatların marağındadır. Ləğv olunan ƏDV hər ikisinin fəaliyyətinə təsir göstərirdi. Bu mənada qəbul olunmuş qərar həm dövlətin nəşriyyatlarının, həm də özəl nəşriyyatların fəaliyyətində də müsbət nəticələrə yol açacaq. İstehsal prosesində bu qərarın necə tətbiq olunacağı isə artıq nəşriyyatların özlərindən asılı olacaq".

✍ Tahirə



■ **Ukrayna Prezidenti Volodimir Zelenski ölkədə hərbi vəziyyətin uzadılması təşəbbüsü ilə çıxış edib. Bu barədə müvafiq qanun layihəsi Ali Radanın saytında yerləşdirilib.**

Bununla belə, Radanın saytında sənədin mətni dərc olunmayıb. Qeyd edək ki, Ukrayna Prezidenti fevralın 24-ü ölkədə hərbi vəziyyətin tətbiq edilməsi barədə sərəncam imzalayıb. Ukraynalı deputatlar elə həmin gün sənədi təsdiq ediblər. Sərəncama əsasən, ölkədə hərbi vəziyyət 2022-ci il fevralın 24-dən 30 sutkalıq tətbiq edilib. Ali Rada martın 15-i hərbi vəziyyətin müddətini aprelin 24-nə kimi uzadıb. Aprelin 21-i isə hərbi vəziyyət mayın 25-nə kimi uzadılıb.



■ **Müharibə müddətində də, yenidənqurma prosesində biz Ukraynanın yanında olmağa davam edəcəyik. Bunu Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen deyib.**

O bildirib ki, Avropa Komissiyası Ukraynaya 2022-ci ildə 9 milyard avroya qədər yeni makromaliyyə yardımı təklif edir. "Yenidənqurma investisiya və islahatlarla birgə reallaşmalıdır. Biz Ukraynanın və Avropa Komissiyasının rəhbərlik edəcəyi yenidənqurma platformasının yaradılmasını təklif edirik. Bu platforma Aİ-nin üzv dövlətlərini, beynəlxalq donorları, maliyyə institutlarını və digər tərəfdaşları bir araya gətirəcək", - o qeyd edib.



■ **""Azovstal" kombinatının ərazisində blokadada qalmış ukraynalı hərbçilər və "Azov" alayının döyüşçüləri təslim olmağa davam edirlər". Bunu Rusiya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi general-mayor İqor Konaşenkov deyib.**

"Ötən sutka ərzində 29-u yaralı olmaqla 694 ukraynalı döyüşçü təslim olub", - deyə məlumatda vurğulanıb. Konaşenkov qeyd edib ki, ümumilikdə mayın 16-dan bu günə qədər 80-ni yaralı olmaqla 959 döyüşçü təslim olub. Bildirilib ki, onlardan 51-i "Donetsk Xalq Respublikası"nda xəstəxanaya yerləşdirilib.



■ **Orqan donorluğu və transplantasiya zamanı meyit donorun qohumlarına münasibətdə resipiyentin, resipiyentə və onun qohumlarına münasibətdə meyit donorun anonimliyinin qorunmamasına görə vəzifəli şəxslər 500 manat, hüquqi şəxslər 1000 manat məbləğində cərimə ediləcək.**

Bu, İnzibati Xətalar Məcəlləsinə təklif edilən yeni - 162-1.2 maddədə əksini tapıb. Canlı donordan transplantasiya məqsədilə donor orqanların götürülməsi zamanı "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanunda nəzərdə tutulmuş tələblərə əməl olunmamasına görə vəzifəli şəxslər 2000 manat, hüquqi şəxslər 5000 manat məbləğində cərimə ediləcək.



■ **Bu ilin sentyabr ayından etibarən 50 azərbaycanlı tələbə İsraildə aqrar sahədə təhsil alacaq. Bunu kənd təsərrüfatı naziri İnam Kərimov deyib.**

Onun sözlərinə görə, ölkənin gənc mütəxəssislərinin xarici ölkələrdə təhsillərini davam etmələri aqrar sahənin inkişafına əlavə dəstək olacaq. Nazir bildirib ki, İsrail hökuməti və sahə naziriyi bu layihəni dəstəkləyir. "Bu layihə gənc mütəxəssislər üçün çox böyük əhəmiyyət kəsb edir. Tələbələr bir il ərzində həm aqrar sahədə çalışacaqlar və həm də fəaliyyət göstərəcəklər. Bir ildən sonra geri dönərək öz fəaliyyətlərini Azərbaycanda davam edəcəklər",- deyə nazir qeyd edib.



■ **Böyük Britaniya və G7 dövlətləri Rusiyanın aktivlərinin Ukraynanın müharibədən sonra yenidən bərpasını maliyyələşdirmək üçün necə istifadə oluna biləcəyini araşdırır.**

Bu barədə Britaniyanın xarici işlər naziri Liz Trass "Times" radiosuna deyib. "Ukraynanın bərpası üçün bizim yeni Marşall Planına ehtiyacımız var və əslində elə biz bu məsələni G7-dəki həmkarlarımla keçirdiyim görüşdə müzakirə etdik. Ukraynanın bərpasında Rusiya aktivlərindən istifadə etmək üçün nə edə biləcəyimizi nəzərdən keçiririk. Əlbəttə, Rusiyanın Ukraynanın bərpasına töhfə verməsini təmin etmək üçün çalışacağıq", - Britaniyanın xarici işlər naziri vurğulayıb.

# Onlayn "nəzir qutuları"

***Məscidlərdə, dini ibadətgahlarda, ziyarətgahlarda toplanılan ianələr, nəzirlərin düzgün xərclənmədiyi, bəzi hallarda cavabdeh şəxslərin sui-istifadə etdiyinə dair iddialar səsləndirilir. Təbii ki, bu məsələ istər sosial şəbəkələrdə, istərsə də cəmiyyətin ayrı-ayrı kəsimlərində heç də birmənalı olmayan müzakirələrə yol açır. Bu amilləri nəzərə alaraq, Milli Məclisdə "Dini etiqad azadlığı haqqında" qanuna dəyişikliklər edildi. Nəzirlərin, ianələrin toplanılması mexanizmi, nəzarət funksiyaları ilə bağlı mühüm qərarlar qəbul olundu. Bunlardan biri də nəzirlərin onlayn qaydada verilməsinə şərait yaratmaqdır. Qanun bir müddətdir ki, qəbul edilib. Hafta.az bu sahədə mövcud vəziyyəti araşdırıb.***




## Müzakirə

**■ Millli Məclisin deputatı, ictimai birliklər və dini qurumlar üzrə komitənin üzvü Ceyhun Məmmədov hafta.az-a açıqlamasında bildirib ki, "Dini etiqad və azadlıqlar" haqqında qanuna dəyişikliklər olsa da, proses tam başa çatmayıb. Onun sözlərinə görə, bu sistem bir müddət sonra işləməyə başlayacaq:**

"Əvvəl də qeyd olunduğu kimi, burada əsas məqsəd və hədəflərdən biri nəzir və ianələrin verilməsi, toplanmasında şəffaflığın artırılmasıdır. Bu o demək deyil ki, nəzirlər yalnız onlayn qaydada olacaq. Nəzirlər həm fiziki formada, yəni istənilən şəxsin məscidlərə, ziyarətgahlara gedərək birbaşa ödəməsi ilə gerçəkləşəcək.

Vətəndaşın bunu həm də onlayn qaydada yerinə yetirməsi mümkün olacaq. Hazırda məqsəd və hədəf budur". C.Məmmədov bildirib ki, onlayn sistemə keçid bir çox hallarda insanların işini asanlaşdıracaq. "Nəzirini məscidə getmədən vermək istəyənlər üçün daha rahat şərait, imkanlar yaradılacaq. Ona görə də nəzirlərin onlayn verilməsinin müsbət tərəfləri çoxdur. Yəqin ki, bir müddət sonra bu barədə mətbuata geniş və ətraflı açıqlama veriləcək". Onlayn nəzirlərin verilməsi hansı halda mümkündür və qəbuledilləndir? Ümumiyyətlə, onlayın nəzir qutularına maraq varmı?

> *Əsas məqsəd və hədəflərdən biri nəzir və ianələrin verilməsi, toplanmasında şəffaflığın artırılmasıdır*

> *Məqsəd bundan ibarətdir ki, ayrı-ayrı fərdlər toplanan o nəzirləri mənimsəməsinlər*

**■ AMEA Şərqşünaslıq İnstitutunun din və ictimai fikir tarixi şöbəsinin elmi işçisi Elvüsal Məmmədov hafta.az-a bildirib ki, sədəqə və nəzirlərin onlayn formada ödənilməsini sistemləşdirmək əvəzinə, insanlara nəzir vermə, sədəqə çıxma qaydalarının şəriətdə necə olduğunu izah etmək lazımdır.** Onun sözlərinə görə, maarifləndirici verilişlər vasitəsilə insanımıza başa salmaq lazımdır ki, nəzir, sədəqə vermək istəyiriksə, yaxşı olardı, onu gedib fərdin özünə verək. "Ən yaxşısı da elə bundan ibarətdir. İstər elektron, istər ənənəvi qaydada olan nəzir, sədəqə qutuları haradasa müəyyən problemlər yarada bilər.

Problem həmin qutulara nəzarətin edilməsi ilə bağlıdır. Verən və alanın birbaşa ünsiyyəti daha düzgündür. O, cəmiyyətdə siniflər arasında inamı gücləndirir, sosial həmrəyliyi möhkəmləndirir". E.Məmmədov qeyd edir ki, "Din və etiqad haqqında" qanuna görə, son dəyişiklik nəzir qutularına nəzarətin tətbiqini nəzərdə tutur. "Məqsəd bundan ibarətdir ki, ayrı-ayrı fərdlər toplanan o nəzirləri mənimsəməsinlər".

**■ Rəsulullah Məscidinin imamı Atif İsmayılov hafta.az-a nəzir və zəkatın verilməsini mühüm, eyni zamanda cəmiyyət arasında çox böyük suallara, qalmaqallara səbəb olan məsələlərdən biri kimi qeyd edib. Onun sözlərinə görə, bu gün cəmiyyətdə bir qrup insan yardımlaşmada, sosiallaşmada müstəqildir, ixtiyar sahibidir.**

"Vətəndaşlar maddi vəziyyətləri yaxşı olmayan insanlara müstəqil şəkildə yardım edə bilərlər. Kimsə ona dəyə bilməz ki, sən hər hansı birinə yardım etmək üçün ayırdığın pulu mütləq hansısa pirə, məscidə təqdim etməlisən".

A.İsmayılov paralel olaraq burada bir məqama diqqət çəkib. Onun sözlərinə görə, bəzi adamlar "Nəzir deyilən bir şey yoxdur", - desə də belə deyil. İnanclı insanların adət-ənənəsində, eyni zamanda, Qurani-Kərimdə nəzirvermə mövcuddur.

"Nəziri hər hansı vaxtda sədəqə qismində vermək şəriətimizdə, dinimizdə çox bəyənilən işdir. Sədəqələr bəlaları dəf edir, insanın sıxıntılarını aparır. Bu sədəqələrin özü də qismlərə bölünür. Vacib sədəqələr - ona dinimizdə zəkat, fitrə deyilir, adından da göründüyü kimi lazımlıdır. Savab mahiyyətli sədəqələr də mövcuddur ki, bunlar da insan əməllərinin müsbət tərəfidir.

A.İsmayılovun fikrincə, indi nəzirin sədəqə qismində sistemləşmiş, yaxud onlayn formatda icra olunması məscidlərdə inanclı insanlarda naharatlıq və problemlər yarada bilər. Onun fikrincə, mübahisə doğuran məqam inanclı insanların dini hökmlər əsasında icra etdiyi ödənişlərin - nəzir, sədəqə, zəkat, fitrənin kimə verilməsi ilə bağlıdır.

"Dində bunun yetim-yesirə, kasıba çatdırılması şərtdir deyə, inanclı insanlar burada həddən artıq ehtiyatla davranırlar.

İnanclı insanlar məscidə, yaxud pirlərə, ziyarətgahlara gedəndə nəzirlər verirlər. İnsanlar özləri Allah qarşısında əhd bağlayırlar ki, işi düzəlsə, filan yetimə əl tutacaq. Buna nəzir deyirlər. Belə nəzirləri vermək üçün inanclı insanlar məscidlərə, ziyarətgahlara üz tuturlar. Namaz əsnasında məscidlərə, ziyarətgahlara gələndə Allahla aralarında olan əhd-peymana, bağlılığa əsasən müəyyən formada nəzirlər çıxarırlar. O nəzirləri məscid daxilində, ziyarətgah və ibadət yerlərində qoyurlarsa, bu, sırf dini rəngə boyanır. Bu, dini baxımdan onu verənin boynunda öhdəçilik yaratdığı kimi, onu alanın da üzərinə məsuliyyət qoyur. Bu, düzgün icra edilməlidir.

Dinimizdə məzhəblərə, etiqadlara görə, zəkatda dini rəng olduğu üçün kimsə onları məcbur edə bilməz ki, ödəmələri elektron köçürmələr vasitəsilə həyata keçirsinlər. Yəni dini rəngə boyanmış nəzirlər, sədəqələr, zəkatın onlayn vasitəsilə həyata keçirilməsi inanclı insanlar üçün qeyri-mümkün görünür. Məsələn, şəriət qanunlarına görə əgər bu, zəkatdırsa, nəzirdirsə, fitrədirsə, o, həqiqi fəqirə, kasıba çatdırılmasa yenə də həmin insanın boynundan düşmür. Onu yenidən çıxarması vacibdir. Onlayn sistemdə bu kimi dini hökmü özündə daşıyan nəzirlərin, sədəqələrin həyata keçirilməsi inanclı insanlar tərəfindən qeyri-real görünür. Ümumilikdə digər ianələrin onlayn formatda edilməsinin qəbahəti yoxdur".

**■ İlahiyyatçı Tural İrfan hafta.az-a müasir dövr texnologiyanın inkişafı ilə bağlı nəzirlərin onlayn verilməsini müsbət təşəbbüs kimi dəyərləndirib. Onun sözlərinə görə, el dilində buna "nəzir" deyilsə də, bu, ianə, yardım hesab olunur.** "Təbii ki, ianə və nəzirlərin ələ verilməsi, yaxud kart vasitəsilə ödənilməsi arasında fərq yoxdur. Daha yaxşı olardı, ianələrin ödənilməsi kart vasitəsilə şəffaf şəkildə həyata keçirilsin. Təəssüflər olsun ki, bizdə texnologiya inkişaf etdikcə, bəzi rüşvətxor, qara qüvvələr yenə də orada öz mənafeləri üçün əyri yol tapırlar".

T.İrfan təəssüflə bir faktı qeyd edib: "Orucluq ayında fitrə zəkatı deyilən yardım növü var. Bu, oruc tutan şəxslər tərəfindən kasıb insanlara verilməlidir.

Tanınmış axund - Şahin Həsənli sosial şəbəkədə bir kart paylaşıb bildirmişdi ki, sədəqələri bu karta ötürün. Hara, kimə xərclənəcəyi barədə yazmamışdı. Bu da böyük müzakirələrə, tənqidə səbəb oldu. Burada artıq şəxsi mənafe və şəxsi nüfuzdan söhbət gedir. Yəni onlayn nəzir məsələsinin bu cür fəsadları ortaya çıxır. Hələ ki, nəzarət tam həyata keçirilmir.

> *Dini rəngə boyanmış nəzirlər, sədəqələr, zəkatın onlayn vasitəsilə həyata keçirilməsi inanclı insanlar üçün qeyri-mümkün görünür*

> *Daha yaxşı olardı, ianələrin ödənilməsi kart vasitəsilə şəffaf şəkildə həyata keçirilsin*

Nəzarətin həyata keçirildiyini müşahidə etmirik. Ümid edirik, bu məsələdə şəffaflıq təmin olunmalıdır. Hazırkı vəziyyəti qənaətbəxş hesab etmirəm. Nəzir, sədəqələrin verilməsi pərakəndə haldadır, maarifləndirmə işləri aparılmır.

Belə işlərlə bağlı normal səviyyədə maarifləndirmə işləri aparılmalıdır. Ona görə də qaranlıq məqamlar var. Şəffaf şəkildə bildirilməlidir ki, hansısa ünvanlı ianələr xaricdən onlayn vasitəsilə hansısa pirə ödənilib. Onun hara xərclənəcəyi, necə olacağının şəffaf şəkildə hesabatı verilməlidir. Bu baxımdan boşluqlar var".

*Tahirə Qafarlı*

# MİDA-dan sosial evlərin satışı ilə bağlı açıqlama



**Məlum olduğu kimi, bu ilin mart ayında MİDA-nın tikdiyi sosial evlər layihəsində 5 saniyə ərzində evlərin satılması böyük qalmaqala səbəb olmuşdur. Hadisə ilə əlaqədar bir neçə nəfər saxlanılmış və onların xüsusi proqramla həmin evləri 5 saniyə ərzində alması müəyyən edilmişdir.**

Hazırda məsələnin hansı yerdə olduğunu və martın 30-da baş tutan satış prosesinin ləğv edilib-edilməyəcəyini dəqiqləşdirməq məqsədilə Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) ilə əlaqə saxladıq. Qurumun mətbuat katibi Diana Dadaşova hafta.az-a açıqlamasında bildirdi ki, hazırda zəruri hüquqi prosedur tədbirləri davam etdirilir: "Araşdırmaların nəticələri barədə ictimaiyyətə əlavə məlumat veriləcək".

O, öz açıqlamasında, həmçinin sosial evlərlə bağlı növbəti satış elanı barədə də dəqiq məlumatın olmadığını bildirdi.

*Sevinc*

***Qeyri-rəsmi məlumatlara əsasən, Azərbaycanda hər bir vətəndaş ilboyu şəxsiyyət vəsiqəsi təqdim etmək şərtilə maksimum on min dollar ala bilər. Hazırda banklar səviyyəsində tətbiq olunan limitin ləğvi tez-tez gündəmə gələn məsələlərdən biridir.***



# Banklar "dollar limiti"ni ləğv etmir

Ötən il belə limitin sıfırlandığı və tətbiq edilməyəcəyi söylənsə də, vətəndaşlar dollar alışı zamanı çətinliklərlə üzləşirlər. Nəzərə alsaq ki, Azərbaycan nefti dünya bazarında yüksək qiymətlə satılır. Deməli, ölkəyə dollar axınında da artım yaşanır. Belə bir vəziyyətdə vətəndaşlara dollar alışında limit tətbiq edilməsi nə qədər doğrudur? Mövcud vəziyyətlə bağlı sahibkarlar hansı çətinliklərlə üzləşirlər?

**■ Hafta.az məsələ ilə əlaqədar yaranmış sualları mütəxəssislərə ünvanladı.** Bank sahəsi üzrə ekspert Əkrəm Həsənov bildirdi ki, dollar limitinin olması tam qanunsuzdur. İndiyə kimi heç bir dövlət orqanı bu limiti tətbiq etdiyini boynuna almayıb: "Deyirlər ki, guya banklar özləri bunu müəyyənləşdiriblər. Bütün hallarda məsələ qanunaziddir və panikanın yaranmasına səbəb olur. Xüsusilə indiki dövrdə, dollar gəlirlərinin artdığı bir vaxtda niyə belə limit müəyyən olunub, başadüşülən deyil. Buna görə də həmin limit ləğv olunmalıdır".

**■ İqtisadi məsələlər üzrə ekspert Emin Qəribli hesab edir ki, dollar limitinin ləğvi məsələsinə 2023-cü ildən sonra yenidən baxılacaq:** "Hazırda ölkə üzrə vətəndaşlara dollar alışında limit tətbiq edilib. Neftin qiyməti artdığından ölkədə dollar qıtlığı yoxdur. Postpandemiya dövrü ilə bağlı olaraq qiymətlərdə kəskin eniş və qalxış müşahidə edilir. Buna görə, fikrimcə dollar limitinə 2023-cü ildə yenidən baxıla bilər. Mütəxəssislər deyirlər ki, 2023-cü ilin birinci yarısında biz artıq pandemiyadan əvvəlki dövrə qayıdacağıq. Bu zaman da stabillik yaranacaq. Daha sonra dollar limitinin ləğvindən danışmaq olar. İqtisadiyyatımız şaxələndikcə dollar problemi həll olunacaq. Neftin bahalaşması limitin aradan götürülməsinə tutarlı səbəb deyil. Ölkəyə idxal edilən məhsulların da qiyməti qalxıb. Üstəlik, belə məhdudiyyət əksər dünya ölkələrində də var". Ekspertin sözlərinə görə, alverçilərə dollar limiti tətbiq etmək doğru qərardır: "Təbii ki, dollar limiti ilə bağlı sahibkarlar bir sıra çətinlik yaşayırlar. Burada sahibkar dedikdə ticarət və kommersiya ilə məşğul olan şəxsi deyil, istehsal edəni nəzərdə tuturuq. Onlara dəstək olmaq lazımdır. Tutaq ki, vətəndaş Çindən dollarla məhsul alıb, ölkədə onun satışını həyata keçirmək niyyətindədir. Bu hal iqtisadi təhlükəsizliyə mənfi təsir göstərir. Ölkədən külli miqdarda dollar çıxır. Dollar neftin hesabına başa gəlir. Ona görə də dollar limiti bəzi hallarda tətbiq edilməlidir. İstehsalatla məşğul olan sahibkarlar üçün dollar alışına şərait yaradılmalıdır".

> *"İstehsalatla məşğul olan sahibkarlar üçün dollar alışına şərait yaradılmalıdır"*

*Banu*

# Erməni blogger yeni Laçın yolundan yazdı

**Azərbaycanın rəsmi qurumlarının da təsdiqlədiyi kimi, 10 noyabr 2020-ci il razılaşmasına əsasən növbəti 3 il ərzində tərəflərin razılığı əsasında Yuxarı Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizinə alternativ olaraq yeni hərəkət marşrutunun inşasına artıq başlanılıb.**

Məlumata görə, alternativ yol Ermənistanın Sünik rayonunun Gorunzur kəndindən başlayacaq, Laçın rayonunun Zabux kəndi yaxınlığındakı Qayğı qəsəbəsindən, Şuşa rayonunun Aşağı və Yuxarı Qaladərəsi kəndlərindən keçərək dağların arasından Xankəndinə çatacaq...

Artıq erməni mediası bəhs edilən yolun Azərbaycan inşaat şirkətləri tərəfindən tikintisi ilə bağlı reportajlar hazırlamağa başlayıblar. Hafta.az Xankəndidə yaşayan erməni blogger David Simonyanın alternativ yolun keçdiyi Şuşa rayonunun Aşağı və Yuxarı Qaladərəsi kəndlərindən obyektivliyə yaxın olduğu hiss edilən reportajının tərcüməsini qısa ixtisarla təqdim edir.



"Berdadzora yollandım, dedilər ki, orada Ermənistanı Qarabağla birləşdirəcək yeni yolun genişmiqyaslı tikintisi gedir. Azərbaycanlılar tikir. Deyirlər ki, bizim üçün, Qarabağ erməniləri üçün tikirlər. Bizim üçün çəkilən yeni yol Böyük Qaladərəsi və Kiçik Qaladərəsi kəndlərinin yanından keçir. Magistral yolu ilə Tasi Verst (Onverst) kəndini keçib sola dönür və meşə yolu ilə dağlara doğru getməkdə davam edirsən. Yolda Hin Şenə çatmamış erməni kəndliləri gördüm, onlar su borularını qazıb çıxarırlar. Ağır texnika ilə yol genişləndirilir, onsuz da borular xarab ediləcək, ona görə də qazılıb çıxarılır. Meşə də yolun eninə boyu qırıldığı üçün kənd camaatı məhv olmuş ağacları odun üçün kəsir ki, heyif olmasın. Kəndlilərdən soruşuram: "Azərbaycan fəhlələri ilə ünsiyyət saxlayırsınız?" Deyirlər: "Çox deyil, amma bir-birimizlə salamlaşırıq"...

- Aranızda problem olubmu?
- Hələ ki, yox...

Məcburi barışmanın mahiyyəti ondan ibarətdir ki, Mets Şen və Hin Şen kəndlərinin sakinləri hər gün bu yoldan keçirlər və yol inşaatçılar tərəfindən texnika ilə bağlanır. Ya çox uzun müddət gözləməlisən, ya da azərbaycanlılara yaxınlaşıb hərəkət etmək üçün bir dəqiqəlik yolu açmağı xahiş etməlisən. Ədalət naminə azərbaycanlı inşaatçılar ermənilərin keçməsi üçün heç bir xüsusi maneəni törətmirlər. Hətta dedilər, elə hallar olub ki, ermənilərin maşını yolda xarab olub qalanda gəlib kömək ediblər...

İrəlidə yolu qazma maşını bağladı-mən onları dəfələrlə görmüşəm: qayada dərin çuxur açılır, oraya partlayıcı qoyub dağı uçururlar. Daha sonra texnika dağıdılmış daşları götürür və yol genişləndirilir. Məni başqa şey təəccübləndirdi, azərbaycanlılar mühafizəsiz işləyirdilər. Amma aydın oldu ki, onların mühafizəsi var, dağın başında Azərbaycan postu qurulub, görünür, orada yola nəzarət edən kameralar da var...

Yarım saat gözlədik, işlərini qurtardılar və yolumuzu açdılar. Yolda onların ağır texnikası çox işləyirdi, ekskavatorlar yoldan daşları çıxarırdı, işçilər də yaxınlıqda idi. Biz yaxınlaşanda yan tərəfə çəkilib yolumuzu açdılar. Siqnal verib təşəkkür etdim, hər şey adi insanlar arasında olduğu kimi mədəni idi. Baxmayaraq ki, mən Qarabağda bir erməni və azərbaycanlının bu qədər yaxın dayandığını uzun illərdir ilk dəfə görürəm.

Hin Şen kəndinin girişi "qardaşlıq məzarlığın"dan, Rusiya blok-postunu yanından başlayır, yan tərəfdə isə bulaq var. Saxladıq, bu vaxt azərbaycanlıların olduğu maşın yaxınlaşdı, bulaqdan butulkalarla su götürürdülər. Onlara yaxınlaşıb salam verdim və soruşdum: "Rus dilində danışan varmı?".

Azərbaycanlılardan biri könülsüz cavab verdi. Ondan soruşdum: "Ermənilərlə çətinliyiniz varmı?" Dedi: "Yox, salamlaşırıq - vəssəlam." Yeni yolun xəritəsini göstərməsini xahiş etdim, cavab verdi ki, onda yoxdur. Bir Rusiya əsgəri yaxınlşadı və bloqqer olduğumu bilәndən sonra onu videoya çəkməməyimi xahiş etdi. Kəndə düşdük. Həmin vaxt işıq, qaz yox idi. Elektrik dirəyin üzərində işləyirdi, işığı birləşdirirdi. Amma qazla bağlı nə başverdiyini və niyə olmadığını başa düşmədik.

Yaxınlıqda ekskavatorlar guruldayırdı. Onlar kəndin yanında deyil, yaxınlıqda da işlər aparır, bundan sonra yolların hissələri birləşdiriləcək. Məni bulaqdan aydın şəkildə götürmüş, ermənicə yazısı olan və 1941-1945-ci illərin yadda qalan tarixi olan daş maraqlandırırdı. Məlum olur ki, yolu genişləndirəndə yenidən hara qoyacaqlarına qərar verənə qədər onu götürüb bura köçürüblər.

Kəndlilərdən azərbaycanlılarla münasibətlərinin necə olduqlarını soruşdum. Cavablnda indiyə qədər hər şeyin qaydasında olduğunu deyirlər, amma bildirirlər ki, əksəriyyəti onlarla aqressiv davranır. Hamısı yox, çoxu. Bununla belə, axşamlar bir-birinə qonaq gedənlər də var. Əsas odur ki, heç bir hücum hadisəsi baş verməyib.

Bəs yol, onun kəndlilərə xeyri varmı? Deyirlər ki, müharibədən sonra onsuz da kəsilmiş otlaqların 30-40 faizi yolun altına düşüb. Kimindir, ya icarədədir, soruşmurlar, amma sakinlər yaxınlıqdakı yeni yolun da faydalı olacağı ilə razılaşırlar. Arada etibarsızlıq var və bu başa düşüləndir. Sabah nə olacağını heç kim bilmir, yalnız hər şeyin qaydasında olduğuna inandıran Rusiya sülhməramlısı nikbinlik yayırdı: "Başqa cür ola bilməz" - rus hərbçi belə deyirdi.

Geri qayıdanda ekskavatorlar kolonuna rast gəldim, iş günü artıq bitmişdi. Bir-birinə yol verərək dar dağ yolunda sürürdülər. Mets Şen kəndində Suren dayı ilə söhbət etdim. Onun tezliklə 90 yaşı tamam olacaq. Çox maraqlı şeylər danışdı... Çoxuşaqlı bir ailə üçün ev tikdiyini gördüm...

*Sultan Laçın*

